**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜD SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Kərimli Səbinə Namik qızı**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜD SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**

**İxtisaslaşma: Əməyin iqtisadiyyatı**

**Qrup: 94**

**Magistrant:**
**Kərimli Səbinə Namik qızı**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., b/m Hüseynov Rəşad Aktiv oğlu**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**__________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Kərimli Səbinə Namik qızı and içirəm ki, “Azərbaycan Respublikasında sosial müavinət və təqaüd sisteminin təkmilləşdiriməsi” mövzusu üzrə magistr dissertasiyasın elmi əxlaq normaları və istinad qaydalarına tamamilə riayət edərək və istifadə etmiş olduğum mənbələrin hamısını ədəbiyyat siyahısında göstərməklə yazmışam.

## AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜD SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Sosial müavinətlər ayrı-ayrı kateqoriyalı şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitidir. Sosial müavinətlər və təqaüd sisteminin təkmilləşdirilməsinin aktuallığı ondan ibarətdir ki, sosial təminat sisteminin təkmilləşdirilməsi nəticəsində həm iqtisadi tərəqqiyə, həm də əhalinin güzəranının yaxşılaşdırılmasına nail olmaq mümkündür.**

**Tədqiqatın məqsədi: Araşdırmamızın məqsədi ondan ibarətdir ki, ölkəmizdə sosial müavinətlərin mövcud vəziyyətini ortaya çıxarmaq və əhalinin rifah halının yüksəldilməsini təmin etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya işinin hazırlanmasında müxtəlif metodlardan istifadə olunacaq ki, bunların da içində mühim əhəmiyyət kəsb edənləri analiz və sintez metodudur.**

**Tədqiqat işinin informasiya bazası: Tədqiqat işinin informasiya bazasın Beynəlxalq Əmək Təşkilatı, AR-nın Dövlət Statistika Komitəsi (DSK), Elmi Tədqiqat İnstitutları materalları, Dövlət Sosial Müdafiə Fondunun özü, Dünya Bankı, Əmək və Əhalinin SosialMüdafiəsi, İqtisadiyyat, Səhiyyə Nazirliyii, o cümlədən də başqa nazirlik və komitələrin, internet məlumatları istifadə edilmişdir.**

**Tədqiqat işinin məhdudiyyətləri: Bir çox ölkələrdə olduğu kimi Respublikamızda da dövlətin sosial iqtisadi inkişafının əsas istiqamətini sosial problemlərin həll olunması təşkil edir. Buna baxmayaraq, sosial-humanitar problemlər, iqtisadiyyatda baş verən transformasiyalar ölkənin daim üzləşdiyi məsələlərdəndir ki, bu da nəticədə əhalinin həyat səviyyəsinin lazımi normalarda ödənilməsində ciddi çətinliklər meydana gətirmişdir. Respublikamızda müstəqilliyin ilk vaxtlarında siyasi vəziyyətin, həmçinin dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilə bilməməsi insanların sosial müdafiə sisteminə çıxışını tamamilə qarşısını almışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Pensiya təminatı sisteminin inkişaf etməsi istiqamətinin çox parametrli aktual proqnozlar üzrə əsaslanmış uzunmüddətli ekonometrik modellərin əsasında təyin edilməsi zəruridir. Ötən dövrdə bu istiqamətdə səriştəyə malik beynəlxalq ekspert və məsləhətçiləri cəlb edilməklə, müxtəlif mövzuların aktuar tədqiq prosesi təşkil edilmişdir. Bu proses davam etdirilməlidir, pensiya təminatı sisteminin gəlirləri və xərcləri arasında mütənasibliyin gözlənilməsi və digər problemlərin əlaqədar şəkildə öyrənilmə mexanizmləri tətbiq edilməlidir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Müavinətlərin unifikasiya olunaraq səmərəli hala gətirilməsi həm ölkənin sosial siyasətinə müsbət təsir göstərəcək, həm də əhalinin rifahını təmin edəcək. Belə ki, tədqiqat işinin nəticələrini sosial sferada istifadə etmək mümkün olacaq.**



***Açar sözlər: sosial müavinət, təqaüd, sosial təminat, təqaüd təminatı, pensiya, aylıq müavinətlər, birdəfəlik müavinətlər.***

**IMPROVING THE SYSTEM OF SOCIAL BENEFITS AND PENSIONS IN THE REPUBLIC OF AZERBAIJAN**

**SUMMARY**

**The actuality of the subject: Social benefits are monthly or lump-sum payments for the provision of social assistance to certain categories of persons. The urgency of improving the system of social benefits and pensions is that as a result of improving the social security system, it is possible to achieve both economic progress and improved living standards.**

**Purpose and tasks of the research: The purpose of our research is to reveal the current state of social benefits in our country and to ensure the welfare of the population.**

**Used research methods: Various methods will be used in the preparation of the dissertation, the most important of which are the method of analysis and synthesis.**

**The informatıon baze of the resarch: The informatıon base of the dissertatıon was used materials of the State Statistis Committe of the Republıc of Azerbaıjan, the State Social Protection Fund, the International Labor Organization, the World Bank, Scientific Research Institutes, the Ministries of Labor and Social Protection, Economy, Health, as well as other ministries and committees.**

**Restrictions of research: As in many countries, the main direction of socio-economic development of the state in our country is the solution of social problems. Nevertheless, socio-humanitarian problems and transformations in the economy are among the issues that the country is constantly facing, which has created serious difficulties in meeting the living standards of the population. In the early days of independence, the political situation in our country, as well as the inability to ensure the economic security of the state, completely prevented people from accessing the social protection system.**

**The novelty and practical results of investigation: It is necessary to determine the direction of development of the pension system on the basis of long-term econometric models based on multivariate actuarial forecasts. In the past, actuarial research on various topics has been organized with the involvement of qualified international experts and consultants in this area. This process should be continued, and mechanisms should be put in place to ensure a balance between the revenues and expenditures of the pension system and to study other issues in a coherent manner.**

**Scientific-practical significance of results: The unification and effectiveization of benefits will both have a positive impact on the country's social policy and ensure the well-being of the population. Thus, it will be possible to use the results of the research in the social sphere.**

***Keywords: social benefits, pensions, social security, pension benefits, pensions, monthly benefits, lump-sum benefits.***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

**ƏƏSMN** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**DOST** Dayanıqlı Operativ Sosial Təminat

**ADAU** Azərbaycan Dövlət Aqrar Universiteti

**AR** Azərbaycan Respublikası

**ST** Sosial Təminat

**VXSİDA** Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

**DSMF** Dövlət Sosial Müdafiə Fondu

**BSTA** Beynəlxalq Sosial Təminat Assosiasiyası

**MİHO** Mərkəzi İcra Hakimiyyəti Orqanı

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ.....................................................................................** | **8** |
| **I FƏSİL.** | **SOSİAL TƏMİNAT SİSTEMLƏRİNİN FORMALAŞMASININ NƏZƏRİ - METODOLOJİ ƏSASLARI.............................** | **11** |
| 1.1. | Sosial müavinət və təqaüdlər sosial təminat sisteminin əsas elementləri kimi........................................................................ | 11 |
| 1.2. | Sosial müavinətlər, onların sosial-iqtisadi mahiyyəti və əsasları............................................................................... | 16 |
| 1.3. | Təqaüd təminatı sisteminin sosial-iqtisadi mahiyyəti və əsasları............................................................................... | 21 |
| **II FƏSİL.** | **AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜD TƏMİNATI SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ...** | **25** |
| 2.1. | Sosial müavinət sistemi: Aylıq müavinətlər və onların təhlili.......... | 25 |
| 2.2. | Birdəfəlik və dövrü müavinətlər..................................................... | 38 |
| 2.3. | Təqaüd təminatı sistemi və təqaüdlərin növləri................................ | 41 |
| **III FƏSIL.** | **SOSİAL MÜAVİNƏTLƏR VƏ TƏQAÜD PROQRAMI SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ.................................** | **51** |
| 3.1. | Sosial müavinətlər unifikasiyası................................................. | 51 |
| 3.2. | Təqaüdlər və onların təkmilləşdirilməsi...................................... | 56 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.....................................................** | **60** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI .....................** | **63** |
| | **ƏLAVƏLƏR**.......................................................................... | 66 |
| | Cədvəllərin siyahısı................................................................. | 67 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Sosial müavinətlər ayrı-ayri kateqoriyalı səxslərə sosıal yardım göstərılməsi üçün aylıq və ya birdəfəlık ödənilən pul vəsaitidir. Sosial müavinətlər və təqaüd sisteminin təkmilləşdirilməsinin aktuallığı ondan ibarətdir ki, sosial təminat sisteminin təkmilləşdirilməsi nəticəsində həm iqtisadi tərəqqiyə, həm də əhalinin güzəranının yaxşılaşdırılmasına nail olmaq mümkündür. Hər kəsə şamıl edilmış sosıal təmınat huququ başlica konstitusıon huquqlardan birıdir. Məhz bü səbədbən də respublıkamız dovlət müstəqılliyini qazandiqdan sonra huququn həmın sahəsinin inkışafı üçün xususi əhəmıyyət verilmış, insanlarin sosıal baximdan müdafıəsi üçün çoxsayli normatıv huquqi akt qəbul olunmuşdur. Bu normatıv huquqi aktlar uzrə təsbıt edılən sosıal təminatin özü huquq normalarinın əsas məqsədı umumi bəşər dəyərləri qoruyaraq saxlamaqla bırgə insanlarin sosıal huquqlarının müdafıə edilməsini, ədalətlılik və humanıstlik prinsıplərini təmın etmədən ibarətdır. Azərbaycanin tərəfdar çıxmiş olduğu beynəlxalq müqavılələrdə ayri hal nəzərdə tutulmamışdisa, Azərbaycan Respublıkası ərazisində daım yaşayan vətəndaşlığı olmayan ınsanlar və əcnəbılər, dovlət qulluqçulari üçun ömürluk müavınətdən başqa, bu Qanünla Azərbaycan Respublıkasının vətəndaşlari üçun muəyyən olünmuş şərtlər və qaydada ayliq, həmçınin birdəfəlık müavınət alma huququna sahibdırlər.Sosıal müavınətlərlə bırgə Azərbaycan Respublıkasının qarşisında xususi xıdmətlərə malık olan insanlarin sosıal müdafiəsin təmın etmək üçun yönəldılən təqaud sistemının muəyyən növləri vardir. Müxtəlıf kateqorıya vətəndaşlarin dovlət qarşisında xidmətlərının dəyərləndirılməsi üçün Azərbaycan Respublıkasının Prezıdentinin fərqlı Fərman və Sərəncamlarina gorə onlara Azərbaycan Respublıkasının Prezıdentinin təqaudləri təyın edılərək ödənılir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Mözvü üzrə araşdırmaların əsas hissəsi ƏASMN-nin (Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi) saytında olan məlumatlara əsasən aparılacaq. Insan huquqlarının basqa novlərindən fərqlənərək sosial təminat huquqlarının xüsusiyyəti aşağıdakılardır:

insan həyatının bir sıra - sosial-iqtisadi sahəsi üzrə şamil edilməsi;

əsas müddəalar üzrə məsləhətverici, «qeyri-ciddi» təriflər verilməsi (məsəl üçün, «layiqli həyat», «ədalətli, həmçinin uyğun həyat şəraiti»);

sosial-iqtisadi hüquqların gerçəkləşdirilməsinin iqtisadi və ehtiyatların durumundan asılı olması.

Sosıal təmınat hüququnun özu əmək qabılıyyətini tamamılə yaxüd da qismən itirən vətəndaşların maddi tələbatlarının ödənməsi üçün onlara hökümət tərərfindən uyğun müavinətlər ödənməsindən və təşkilati-hüquqi başqa tədbirlərin həyata keçirilməsindən ibarət olmaqdadır. Araşdırma əsasında sosial təminat sisteminin hazirki vəziyyəti araşdırılaraq, muəyyən nəticələrə gəlinəcək və təkliflər hazırlanacaq. Sosial təminat hüququ sistemi dediyimiz zaman, onun daxilindəki hüquq normalarının elmi olaraq əsaslandırılan düzülüşü başa düşülməkdədir. Sosıal təmınat huququ normalarını umumi, həmçinin xüsusi hissədə qruplaşdırmaq mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri**: Araşdırmamızın məqsədi ondan ibarətdir ki, ölkəmizdə sosial müavinətlərin mövcud vəziyyətini ortaya çıxarmaq və əhalinin rifah halının yüksəldilməsini təmin etmək. Pensiya təminatı sisteminin islahatının başlıca vəzifələri aşağıdakılardır:

- əmək pensiyasının könüllü yığım komponentlərinin real praktika üzrə tətbiq edilməsi və qeyri-dövlət pensiya institutunun formalaşdırılma və inkişaf etdirilməsi;
- sığorta prinsiplərinə uyğun gəlməyən ödəmələrin tənzimlənmə mexanizmlərinin inkişaf etdirilməsi, eyni zamanda bəzi öhdəliklərin dövlətin öhdəliyi olaraq fərqləndirilməsi;
- pensiya təminat sisteminin uzunmüddətli inkişaf etməsi üçün aktuar təhlillərə əsaslanmış mexanizmlərin formalaşdırılması;
- pensiya təminat sisteminin fəaliyyəti üzrə sığorta prinsipləri gücləndirilməsi və əldə edilən pensiya hüquqları ilə yığılan sığorta vəsaitlərinin arasında balanslaşdırması mexanizminin formalaşdırılması;
- pensiya təminat sistemində təyin edilən pensiya məbləği ödənilmiş sığorta haqqına mütənasiblik təmin olunması.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın oyekti Azərbaycan Respublikasının sosial təminat sistemidir. Tədqiqatın predmetini indiki dövrdə Azərbaycanda mövcud sosial təminat sisteminin nəzəri-metodoloji aspektlərinə yeni formada yanaşılması və elmi-praktiki cəhətdən reallaşma istiqamətlərinin reallaşma istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya işinin hazırlanmasında müxtəlif metodlardan istifadə olunacaq ki, bunların da içində mühim əhəmiyyət kəsb edənləri analiz və sintez metodudur.

**Tədqiqat işinin informasiya bazası:** Tədqiqay işinin informasiya bazasın Azərbaycan Respublikasının DSK, Dövlət Sosial Müdafiə Fond, Beynəlxalq Əmək Təşk;latı, DUnya Bankı, Elmi Tədq;qat İnstutlarının materalı, Əmək və Əhal;nin Sosial MüdafIəsi, İqtisadiyat, Səhiyyə Nazirliyi, eləcə də başqa nazirlik və komItələrin, eyni zamanda interİnet məlumatları istIfadə edilmişdir.

**Tədqiqatın mədudiyyətləri:** Əksər ölkələrdə olduğu kImi dövlətımizdə də dövlətın sosıal iqtısadi inkışaf prosesinin başlıca istiqamətini sosial məsələlərin həll edilməsi təşkil edir. Bunlara baxmayaraq, sosial-humanitar məsələlər, iqtisadiyyatda baş vermiş transformasiyalar dövlətin daima üzləşmiş olduğu məsələlərdəndi ki, bu isə nəticədə əhalinin yaşayış səviyyəsinin lazımlı normalarda ödənilməsi üzrə cıddi çətinlıklər əmələ gətirmişdir. Ölkəmizdə müstəqilliyin ilkin dövrlərındə siyasi vəziyyətin, eyni zamanda ölkənın iqtisadi təhlükəsizliyinin təmin oluna bilməməsi adamların sosial müdafiə sisteminə çıxışının tamamilə qarşısın almışdır. Muharibə dövründə və iqtisadi təhlükəsizliyin təmin edilməməi yoxsulluq və işsizliyin sürətli dınamik formada artması üçün səbəb olmuş, minımum yaşayış standartına vətəndaşların əlyetərliyini aşağiya salmiş və həssas qrupun yoxsulluq təhlükəsini artırmışdı.

**Tədqiqatın elmi yeniliyi:** Pensiya təminatı sisteminin inkişafı istiqamətlərinin çoxparametrli aktuar proqnozlara əsaslanan uzunmüddətli ekonometrik modellər əsasında təyin olunması zəruridir. Ötən dövrdə bu istiqamətdə səriştəyə malik beynəlxalq ekspert və məsləhətçiləri cəlb edilməklə, müxtəlif mövzuların aktuar tədqiq olunması təşkil edilmişdir. Bu proses davam etdirilməli, pensiya təminatı

sisteminin gəlirləri və xərcləri arasında mütənasibliyin gözlənilməsi və digər problemlərin əlaqəli şəkildə öyrənilməsi mexanizmləri tətbiq edilməlidir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Respublıkamızda ötən illər müddətində əhalinin sosıal müdafiəsi siıteminin gücləndirilməsi üçün bir neçə məqsədə müvafiq addımlar atılıb, tədbirlər görülüb və qanunvericilik təkmilləşdirilmişdir. Ancaq, buna baxmayaraq hazırki vəziyyətin təhlilindən göürünür ki, ölkəmizdə həyata keçirilmiş tədbirlər və proqramların intensivlik və əhatəliliyi qənaət bəxş səviyyəli hələ deyil. Buna görə də mövcud problemlərin həll edilməsi yönündə bir neçə təklıf irəli sürülüb və həyata keçırilməsi məqsədəuyğun olması düşünulür. 2015-2016-cı illərdə ölkə əhalisinin pensiyaçı vətəndaşları üçün tamamılə plastik kartlar ilə ödəniş təmin edilmişdir.

# I FƏSİL. SOSİAL TƏMİNAT SİSTEMLƏRİNİN FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Sosial müavinət və təqaüdlər sosial təminat sisteminin əsas elementləri kimi

Hər bir AR vətəndaşına aid olunan sosial təminat hüquqları vacib və əsas konstitusion hüquqların biridir. Elə bu səbəbdən ölkəmizin dövlət müstəqilliyi bərpa olunduqdan sonra hüququn həmin sferasının inkişafı üçün xüsusi olaraq əhəmiyyət verilmişdir. Həmçinin, insanların sosial baxımdan müdafiə olunması məqsədilə bir neçə normativ hüquqi akt qəbul olunmuşdur. Məhz bu normativ hüquqi aktlarda öz əksini tapan sosial təmin hüquququnun əsas məqsədləri ümum bəşəri dəyəri qoruyub-saxlamaq və bununla birgə vətəndaşların sosial hüquqlarının müdafiə edilməsini, humanizm, həmçinin ədalətlilik prinsipini təmin etməkdən ibarətdir.

2006-ci ildə qəbul olunmuş 7 fevral tarixli AR-ın "Sosial müavinətlər haqqında" qanunu ilə sosial müavinətələr Azərbaycan Respublikası qanunu ilə müəyyən olunmuş formada müxtəlif kateqoriyaya aid olan şəxslərə sosial köməklik edilməsi məqsədilə birdəfəlik və ya aylıq ödəmələr formasında təyin olunur və ödənilir.

*"Respublikamızın tərəfdar olduğu beynəlxalq müqavilələrin məzmumunda digər bir hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasını ərazisində daimi olaraq yaşayan vətəndaşlığı mövcud olmayan şəxslər və əcnəbilər, həmçinin dövlət qulluqçularına ödənilən ömürlük müavinətlər istisna edilməklə, qeyd olunan qanunla AR vətəndaşları üçün nəzərdə tutulmuş qaydada və şərtlərlə birdəfəlik və aylıq müavinətlər almaq hüququna sahibdirlər. Sosial müavinətlərlə birgə Azərbaycan Respublikası qarşısındakı xüsusi xidmətlərə malik insanların sosial müdafiəsin təmin etmək üçün yönəldilən təqaüd sisteminin bəzi növləri mövcuddur. Müxtəlif kateqoriya vətəndaşların dövlət qarşısında xidmətlərinin dəyərləndirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin ayrı-ayrı Fərman və Sərəncamlarına görə onlara Azərbaycan Respiblikasının Prezidentinin təqaüdləri*

*təyin edilərək ödənilir" (*Sosial müavinət, təqaüdlər və kompensasiyaların təyin olunması (https://www.sosial.gov.az/sosialmuavinetteqaud)

Sosial-təminatlar hüququnu digər insan hüquqlarından fərqləndirən xüsusiyyətlər aşağıdakılardır:

- Ehtiyatların və iqtisadiyyatın vəziyyətindən asılı olaraq sosial-iqtisadi hüquqların həyata keçirilməsi;
- Vacib müddəalarda "qeyri-ciddi" və məsləhətverici təriflərin verilməsi;
- İnsanların həyatlarında müəyyən olunmuş – sosial istisadi sferaya şamil olunması.

Əhalinin sosial müdafiə sistemi yeni yaranmış müstəqil dövlətlərdə özünün inkişaf dövrünü yaşayır. Sosial müdafiə terminini müxtəlif şəkildə izah edirlər. Sosial müdafiə anlayışını sovet dövründə istifadə olunmuş sosial təminat termini ilə eyniləşdirirdilər. Sovet cəmiyyətində sosial təminat sosial müdafiənin xüsusilə dövlət tərəfindən gerçəkləşdirilən xüsusi təşkilati-hüquqi formasın özündə birləşdirirdi. Müasir şəraitdə əhalinin sosial baxımdan daha artıq müdafiəyə ehtiyacı olan təbəqələrinə yardımı nəzərdə tutan digər təşkilati-hüquqi formaların inkişaf etdirilməsi tələb olunur. Dünya təcrübəsində çoxdan tətbiq olunan sosial müdafiə termini də buna görə irəli sürülmüşdür (https://sesqazeti.az/news/kivdf/461099.html).

Müəyyən sosial və iqtisadi problemlərin həlli üçün yönəldilən sosial, həmçinin iqtisadi tədbirlərin toplusu olan sosial müdafiə, sosial təsisat olaraq beynəlxalq kontekstdə əhalinin qanunvericiliklə təyin olunmuş elə kateqoriyasını əhatə etməkdədir ki, onlar əmək qabiliyyətini itirmək, işsizlik və başqa səbəblər ucbatından özləri və ailələrinin əmək qabiliyyətinə malik olmayan üzvlərinin önəmli həyati tələblərini ödəyə bilmir. Əlverişsiz mühit yarandıqda bu cür vətəndaşlar qanunvericiliklə müəyyənləşdirilən sosial müdafiə sistemi çərçivəsində maliyyə və ya natural, o cümlədən də ayrı-ayrı xidmətlər şəklində kompensasiya səciyyəli yardım göstərilir. Bundan başqa sosial müdafiə sistemi səmərəsiz şəraiti aradan götürmək üçün proflaktik tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Sosial müdafiə işverənin fərdi məsuliyyəti, sığorta, sosial sığorta, ünvanlı sosial yardım, dövlət sosial təminatı və sair formalar daxil olmaqla müxtəlif təşkilati-

hüquqi formalarda həyata keçirilir (http://anl.az/down/meqale/ses/2015/fevral/421449.htm).

Əmək qabiliyyətini qismən və ya tam olaraq itirmiş Azərbaycan Respublikası vətəndaşlarının maddi tələbatlarının ödənilməsi məqsədilə onlar üçün dövlətimiz tərəfindən təşkilati-hüquqi başqa tədbirlərin təşkili və müvafiq olaraq müavinətlərin ödənilməsini ST hüququ özündə ehtiva edir. Azərbaycan Respublikası vətəndaşlarının sosial təminat hüququ aşağıda qeyd olunan hallarda müəyyən edilir:

1. Xəstəliyi müəyyən olunduqda;
2. İşsiz olduqda;
3. Əlilliyi müəyyənləşdikdə;
4. Qanunla müəyyənləşdirilmiş yaş həddinə çatdıqda;
5. Əmək qabiliyyətini itirdikdə;
6. Ailə başçısını itirdikdə.

Təqaüd və müavinətlərdən başqa sosial təminat hüququ özündə digər anlayışları da ehtiva edir. Bunlar aşağdakılardır:

❖ Əlil arabası, müalicə və digər reabilitasiya üçün nəzərdə tutulan vasitələrlə təminat;

❖ Vətəndaşların avtomobil ilə təminatı;

❖ Vətəndaşların mənzil ilə təminatı.

AR-nın Konstitusiya quruluşunun və ərazi bütövlüyünün müdafiəsi vaxtı fiziki cəhətdən sağlamlığını itirmiş vətəndaşlarımız və şəhid ailələri dövlət tərəfindən mənzillərlə təmin olunmaqları məqsədilə mənzil növbəsinə durmaq üçün yaşadıqları rayon üzrə İcra hakimiyyətinə müraciət edirlər. İcra hakimiyyətləri isə bu kateqoriyaya aid olan şəxslərin növbələrinin dəyişdirilməsi, mənzil növbəsinə götürülməsi və həmin növbənin ləğv edilməsi məsələlərinə dair səlahiyyətləri özündə cəmləşdirir.

20 yanvar 1990-ci il tarixində baş verən hadisələr zamanı əlil olmuş şəxslər, Böyük vətən müharibəsi zamanı əlil olmuş şəxslər, respublikamızın ərazi bütövlüyünün təmini zamanı əlillik qazanmış şəxslər, Çernobıl əlilləri, hərbi xidmət

zamanı vəzifə səlahiyyətlərini yerinə yetirərkən əlil olmuş şəxslər həkimin tibbi göstərişi olduğu təqdirdə minik avtomobili ilə təmin edilirlər.

ST hüququnun sistemindən bəhs etdikdə, onun tərkibində elmi şəkildə əsaslandırılmış hüquq normalarının düzülüşü nəzərdə tutulur. Sosial təminatın hüquq normaları xüsusi və ümumi hissədən ibarətdir. Sosial təminat hüququna aid olan ümumi hissədə sosial təminat sahəsinə aid olan mühim əhəmiyyətli hüquqları əhatə edən normalar, hüquqi tənzimrtməyə dair vəzifə və prinsiplər daxildir.

Təminatın müxtəlif növlərinin təyin olunmasını müəyyənləşdirən normalar onun xüsusi hissəsinə aiddir. Hüquq sferasının institutlarını normaların məhz bu qrupları yaradır. Nümunə olaraq isə aşağıda qeyd olunan institutları sadalamaq olar: xidməti illərə görə, əlilliyə görə, yaşa görə, ailə başçısını itirməyə görə ödənilən pensiyalar və qısamüddətli dövr üçün əmək qabiliyyətini itirməyə həmçinin, işsizliyə görə müavinətlər və s. Ümumi olaraq qeyd etmək lazımdır ki, ST hüququnun sistemi bir-biriylə qarşılıqlı surətdə əlaqədar norma və institutların məcmusunu özündə ehtiva edir.

Sosial təminat hüququna dair münasibətləri aşağıda qeyd olunan şəkildə təsnifləşdirmək olar:

1. Sosial təminatın aid olduğu sistem üzrə onun “natural” və pul ödəmələri ilə əlaqədar formalaşan münasibətilərin normal qaydada fəaliyyət gösrətməsinə görə obyektiv şəkildə vacib olan prosessual və prosedur xarakterə malik köməkçi münasibətlər. Qeyd olunanlara aiddir: pozulmu. Hüquqların müdafiəsi, sosial təminata aid bu və ya başqa növünün hüququnun reallaşdırılması, hüquqi faktların müəyyənləşdirilməsi və s.

2. Sosial təminat sistemində pul ödənişləriylə əlaqədar yaranan münasibətlər. Bunlara aiddir: kompensasion ödəmələr, müavinətlər, pensiyalar və s.

3. Bilavasitə bölüşdürmə münasibətlərində realizə prosesiylə əlaqədar formalaşan münasibətlər də sosial təminatın hüquq sahəsinə aiddir. Qeyd olunan münasibətlər hüquqi tətbiq edici fəaliyyətə dair münasibətlərdir. Yuxarıda göstərilən münasibətlərin məzmununu sosial təminat məsələlərinə dair qərarların qəbul olunması, hüquqi faktların müəyyənləşdirilməsi və s. təşkil edir.

4. Sosial təminat sisteminin "natural" formalarıyla bağlı meydana gələn münasibətlər. Bunlara aiddir: güzəştli və ya pulsuz dərman yardımı, yarımstasionar və tam sosial xidmət, müalicə və tibbi yardım, kurort-sanatoriya müalicəsi, əlillərə ödənişsiz şəkildə mənzillərin təqdim edilməsi, əlillərin nəqliyyat vasitələriylə təmin olunması, uşaqların uşaq müəssisələrində və ya internatlarda saxlanması, ortopedik-protez yardım üzrə güzəştlər.

Beləliklə, sosial təminat sisteminin vasitəsi ilə daxili məhsulun bölüşdürülməsilə əlaqədar formalaşan prosedur-prosessual və maddi xarakterli kompleks ictimasi münasibətlər sosial təminatın predmetini təşkil edir.

## 1.2. Sosial müavinətlər, onların sosial-iqtisadi mahiyyəti və əsasları

*Hər kəsin AR Konstitusiyasında 38-ci maddəyə görə sosial təminat hüququ mövcuddur. Yuxarıda qeyd olunan maddəyə görə "yardıma möhtac olan şəxslərə kömək etmək birinci olaraq onların ailə üzvlərinin borcudu. Həmçinin hər kəs qanunla müəyyənləşdirilmiş yaş həddinə çatdığı zaman, xəstəliyinə, əlilliyinə, ailə başçısın itirdiyinə, əmək qabiliyyətin itirdiyinə, işsizliyə əsasən və qanunla nəzərdə tutulan başqa vəziyyətlərdə sosial təminat hüququna sahibdir. Təqaüdlər və sosial müavinətlərin ən aşağı məbləği qanunla müəyyən olunur. Dövlət xeyriyyəçilik fəaliyyəti, könüllü sosial siğorta və sosial təminatın digər növlərinin inkişaf etməsi üçün imkanlar yaradır"* (http://astirk.org/azerbaycan-respublikasi-konstitusiyasindan-cixaris.html).

Qanunla müəyyənləşdirilmiş qaydada müxtəlif kateqoriyadan olan şəxslərə sosial cəhətdən yardım edilməsi üçün birdəfəlik və ya aylıq olaraq ödənilən pul vəsaitinə sosial müavinət deyilir. Respublikamızın ərazisində yaşayan əcnəbilər və vətəndaşlığı olmayan insanların müavinət almaq hüququ vardır. Sosial müavinətlər 2 növdən ibarətdir. Onlar aylıq və birdəfəlik olaraq xarakterizə olunurlar. Birdəfəlik sosial müavinət aşağıdakı növləri özündə cəmləşdirir:

- Dəfn üçün müavinət;
- Uşağın anadan olması üçün ödənilən müavinət;

- Cəza çəkmə müəssisələrindən azad edilmiş sosial və tibbi yardıma ehtiyac duyan şəxslər üçün ödənilən müavinət;
- Radiasiya qəzasının nəticəsi olaraq zərər görmüş şəxslərə müəlicə üçün hər il ödənilən müavinət.

Aylıq sosial müavinətlər aşağıdakı kimi təsnifləşdirilir:

- 3 yaşadək uşaqlara qulluq üçün ödənilən müavinət;
- Müvafiq icra hakimiyyəti orqanının təşəbbüsü ilə müəyyənləşdirilmiş bəzi kateqoriyadan olan şəxslərə nəqliyyat, kommunal və başqa xidmətlər üçün ödənilən müavinət;
- Dövlət qulluqçularına ödənilən ömürlük müavinət;
- Yaşı 18-dən çox olan əlilliyi olan şəxslərə ödənilən müavinət;
- Yaşa görə müavinət;
- Ailə başçısını itirən şəxslərə ödənilən müavinət;
- Yaşı 18-dək olan sağlamlıq imkanları məhdud şəxslərə ödənilən müavinət;
- 1 yaşadək uşağı olan aztəminatlı ailərlər üçün verilən müavinət;
- Müvafiq icra hakimiyyəti orqanının təşəbbüsü ilə müəyyənləşdirilmiş bəzi kateqoriyadan olan şəxslərin 16 yaşına qədər olan uşaqlarına ödənilən müavinət;
- Uşaqlarının sayı beşdən çox olan qadınlara ödənilən müavinət;
- Valideyn himayəsindən məhrum olan və valideynlərini itirmiş uşaqların himayəçilərinə(qəyyumlarına) ödənilən müavinət;
- AR vəfat edən keçmiş Prezidentin həyat yoldaşına(əri və ya arvadına) və yaxud öhdəsindəki uşağa "Azərbaycan Respublikası keçmiş Prezidenti və onun ailə üzvlərinin təminatları haqqında" Konstitusiya qanununa görə verilən müavinətlər.

Sosial xidmətlər üzrə müəssisələrdə yaşayan şəxslərə təyin edilmiş müavinətlər tam şəkildə ödənilir. Sosial xidmətlər üzrə müəssisələrdə yaşayan özünün vacib tələbatlarını müstəqil formada təmin edə bilməyən nisbətən çətin həyat şəraitində yaşayan fəaliyyət qabiliyyətsiz şəxslərə təyin olunmuş müavinat onların himayəçilərinə və ya qəyyumlarına ödənilir. AR Mülki Məcəlləsinə uyğun olaraq himayəçilər və qəyyumlar müavinətin üzərində sərəncam vermək hüququna malikdirlər. Əlavə olaraq qeyd etmək olar ki, müddətindən asılı olmayaraq əvvəlki

dövrdə alınmamış müavinətin məbləği tam olaraq ödənilir. AR Mülki Məcəlləsinə uyğun olaraq himayəçilər və qəyyumlar sərəncam vermək hüququna malikdirlər. Müavinat alan şəxsin ölümünə görə dəfn müavinəti dəfn ilə əlaqədar xərcləri ödəmiş şəxsə verilir.Müavinət alan şəxslərə dövlət qayğısını artırmaq və onların rifah halını yaxşılaşdırmaq məqsədiylə dövlət başçımız dəfələrlə sosial müavinətlərin məbləğinin artırılmasıyla bağlı qərarlar qəbul etmişdir. Bunlara aşağıdakılar aiddir:

- ✓ 1 aprel 2014-cü il tarixində qüvvəyə minən AR Prezidentinin sosial müavinətlərin məbləğinin artırılması haqqında Fərmanı. Qeyd olunan fərmanda dövlət başçımızın 29 avqust 2013-cü il 973 n-li sosial müavinətlərin artırılmasıyla bağlı fərmanında “37” rəqəmi “45” rəqəmi ilə əvəz edilmişdir.
- ✓ Daha sonra növbəti fərman haqqında qərar 19 yanvar 2016-ci ildə verilmişdir ki, bu qanun da elə həmin ilin 1 fevral tarixindən etibarən qüvvəyə minmişdir. Bu qanuna əsasən sosial müavinətlər 10% artırılmışdır.
- ✓ 23 fevral 2018-ci ildə verilmiş növbəti sərəncama uyğun olaraq 1 mart tarixindən sosial müavinətlərin məbləği bir daha 10% artırılmışdır.
- ✓ Dövlət başçımız Konstitusiyamızın 109-cu maddəsinin 31-ci bəndinə əsasən 25-i fevral 2019-cu il 992 n-li “Əhalinin sosial müdafiəsinin gücləndirilmə sahəsində əlavə tədbirlər barədə” sərəncamına müvafiq olaraq qərara gəlmişdir ki, aylıq olaraq ödənilən müavinətlərin məbləğində dəyişikliklər olunsun. Yuxarıda qeyd olunan dəyişiklik 1 aprel 2019-cu il tarixindən qüvvəyə minmişdir.
- ✓ Bu günki tarixə son dəyişiklik 6 oktyabr 2020-ci il tarixində edilmişdir. Belə ki prezindetin fərmanına əsasən bəzi müavinətlərin məbləğində dəyişiklik edilmişdir ki, bu dəyişikliklər də 1 yanvar 2021-ci il tarixindən bu günədək qüvvədədir.

Yuxarıda qeyd olunan Fərman və Sərəncamların məqsədi əhalinin rifah halının müsbət yöndə dəyişdirilməsini özündə ehtiva edir.

AR Prezidentinin 24 fevral 2006-ci il tarixli 372 n-li fərmanında dəyişiklik 2016-ci il 6 sentyabr fərmanına əsasən nəzərdə tutulmuşdur. Belə ki dəyişikliyə əsasən

qanunun 12.2, 10.3-10.5 və 10.1- maddələrində nəzərdə tutulan səlahiyyətlər AR ƏƏSMN-ə həvalə olunması nəzərdə tutulmuşdur.

Sosial islahatlar sahəsində həyata keçirilmiş addımlara misal olaraq Pandemiya dövründə xüsusi karantin rejiminin tətbiq olunduğu şəhər və rayonlarda Nazirlər Kabinetinin tərəfindən təsdiq olunmuş Tədbirlər Planında işsiz olaraq qeydiyyata alınmış şəxslərə hər ay üzrə yaşayış minimumu məbləğində (190 manat) birdəfəlik ödəmələr verilməsini göstərə bilərik. Birdəfəlik ödəmənin verilməsi üzrə ünvanlılıq prinsipi, şəxsin ailəsinin gəlirləri nəzərə alındı. Birdəfəlik ödəmə şəxslərə nağdsız şəkildə ödənildi.

Ümumilikdə, 2020-ci ilin aprel və may aylarında, həmçinin ondan sonra sərtləşdirilmiş karantin tədbiq edilən bölgələr üzrə 3, 4 və 5-ci dəfə 190 manat birdəfəlik ödəmə verilib. Bu məqsədlə ümumi olaraq 350 000 000 azn-dən artıq vəsait xərclənmişdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, 44 günlük 2-ci Qarabağ müharibəsinin nəticəsində qazilərə və şəhid ailələrinə ƏƏSMN tərəfindən birdəfəlik sosial müavinətlər təyin edilmişdir. Həmçinin, AR Prezidentinin 2020-ci il 8 dekabr tarixli fərmanıyla ölkəmizin ərazi bütövlüyünün müdafiəsiylə əlaqədar şəhid ailələrinin və yaralıların ehtiyaclarının təminatına dəstək məqsədilə (“YAŞAT” fondu) yaradılıb. Yaşat fondunun məqsədi hərbi əməliyyatların nəticəsi olaraq əlilliyi müəyyənləşdirilmiş və şəhid ailələrinin sosial müdafiəsi sferasında dövlətin təşəbbüsü ilə həyata keçirilən tədbirlərə əlavə olaraq dəstək göstərilməsi istiqamətində xeyirxah təşəbbüslərin reallaşdırması məqsədilə vahid platforma yaratmaqdır. Bu istiqamətdə ictimai nəzarətin, hesabatlılığın və şəffaflığın təmin olunması da fondun əsas məqsədlərindən hesab edilir. Fondun vəsaitinin idarə edilməsinə və formalaşdırılmasına ümumi olaraq nəzarəti dövlət başçımızın təsis etdiyi Himayəçilik Şurasının səlahiyyətindədir. Qeyd olunan fondun sərəncamçısı AR Prezidenti yanında VXSİDA-dir.

Prezident İlham Ə.-in 25-i yanvar 2021-ci il tarixi Sərəncamına əsasən şəhid ailələri, həmçinin müharibə əlilərinə ayrıca qayğının növbəti təzahürüdü. Sərəncamda 2021-2025-ci illər şəhid ailələri və Qarabağ müharibəsinin əlillərinə 11

min mənzil həmçinin fərdi ev verilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda bu il ərzində 3 minə qədər mənzil və fərdi ev həmin kateqoriyadan olan şəxslərə təqdim olunacaq. Onların artıq 470-i verilmişdir. Ümumilikdə indiyə kimi şəhid ailələri, müharibə əlilləri ilə onlara bərabər tutulmuş şəxslərə 9670 mənzil, o cümlədən fərdi ev verilmişdir (https://apa.az/az/xeber/sosial-xeberler/sehid-aileleri-ve-muharibe-elillerine-daha-50-menzil-teqdim-olunub-644066).

Möhtəşəm Zəfərimizlə sona çatan 44 gün davam edən Vətən müharibəsindən sonra olan dövrdə şəhidlərimizin ailə üzvləri, qazilər və müharibə əlillərini əhatələyən sosial dəstək paketi belə qeyd edilib. Bu vətəndaşlara sosial ödənişin proaktiv təyinatının gerçəkləşdirildiyi, onlara sosial-psixoloji dəstəklər reabilitasiya xidməti və vasitələri ilə təmin edilmə, məşğulluq məsələsinin operativ həlli sahələri üzrə önəmli işlər həyata keçirildiyi diqqətə çatdırılıb. Həmin dəstək paketinin daha 21 mindən artıq şəxsi əhatə etdiyi vurğulanmışdır (https://1news.az/az/news/20210521040233529-Shehid-aileleri-ve-muharibe-elillerine-daha-50-menzil-teqdim-olundu-FOTO).

## 1.3. Təqaüd təminatı sisteminin sosial-iqtisadi mahiyyəti və əsasları

Əhalinin müəyyən bir hissəsinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəlmiş aylıq ödənişlərə təqaüdlər deyilir. Təqaüdlərrin bir neçə növü mövcuddur. Bunlara aşağıdakılar aiddir:

- 20 Yanvar şəhidlərinin ailə üzvlərinə ödənilən AR Prezidentinin təqaüdü;
- 20 Yanvar 1990-ci hadisələri və ya müharibə zamanı əlilliyi yaranan şəxslərə  AR Prezidentinin təqaüdü;
- AR Milli Qəhrəmanı adı təqdim edilmiş şəxslərə ödənilən AR Prezidentinin təqaüdü;
- Şəhidərin ailə üzvlərinə ödənilən AR prezidentinin təqaüdü;
- Peşə xəstəliyi və əmək zədəsi ilə, hərbi xidmət zamanı xəstələnmə ilə, ümumi xəstəliklə, Çernobıl AES-də qəzanın ləğvi ilə, hərbi əməliyyatlar keçirilən

ərazidə olmaqla əlaqədar I qrup əlilliyi formalaşan şəxslərə ödənilən AR Prezidentinin təqaüdü;

- Fəxri adların verilməsinə görə ödənilən AR Prezidentinin təqaüdü;
- Sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan şəxslərə və ya I qrup əlillərə qulluğa görə əmək pensiyasını sığorta hissəsinə əlavənin əvəzinə sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan uşaqlara və I qrup əlilliyi mövcud olan şəxslərə qulluq edənlərə AR Prezidentinin təqaüdü;
- Əfqanıstanda Sovet qoşunlarında fəaliyyət göstərərkən məhkəmə qərarı ilə ölmüş eləan edilən, həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə ödənilən AR Prezidentinin  təqaüdü;
- Müharibə veteranlarına nəqliyyat, kommunal və başqa xidmətlərə görə ödənilən sosial müavinət, bundan əlavə döyüş ordusunun tərkibində xidmət edən müharibədə iştirak etmiş şəxslərin əmək pensiyalarının sığorta hissəsinin əlavəsi əvəzinə ödənilən AR Prezidentinin təqaüdü;
- II Dünya müharibəsində Leninqrad şəhərini mühasirəyə alan zaman idarə, təşkilat və müəssisələrdə işləmiş və 1941-1945ci ilərdə baş vermiş Böyük Vətən müharibəsində iştirak etmiş “ Leninqradı mühasirəsində yaşayan”döş nişanı, “Leninqradın müdafiəsinə görə” medalıyla təltif olunmuş şəxslərə AR Prezidentinin təqaüdü.

Ölkəmizdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə, AR vətəndaşlarına “Əmək pensiyaları haqqında” Qanuna müvafiq olaraq AR vətəndaşlarıyla eyni əsaslarla pensiya təyin olunur və ödənilir. Əmək pensiyası- “Əmək pensiyaları haqqında” qanunda nəzərdə tutulan şərtlərlə və qaydada müəyyən edilmiş və məcburi dövlətin sosial sığorta olunanlarının əmək pensiyası təyin edildikdən daha əvvəl aldıqları digər gəlirlər və əmək haqqının və yaxud sığortalıların ölümüylə əlaqədar həmin şəxslərin ailə üzvlərinin xərclədikləri pul vəsaitinin kompensasiyası məqsədiylə vətəndaşlara aylıq olaraq ödənilən pul ödənişidir.

2021-ci il 5 fevral tarixində cənab Prezident “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” Sərəncam verdi. Sərəncamın məqsədi pensiyaçıların

rifah halının daha da yaxşılaşdırılması və sosial müdafiə istiqamətində görülən tədbirlərin gücləndirilməsi yönündə növbəti addım atmaqdır. Qeyd olunan sərəncam ilə bağlı baş tutan mətbuat konfransında ƏƏSMN-nin nəzdindəki DSMF-nun hazırki sədri Məmişov Himalay qeyd edib ki, 2020-ci ildə orta aylıq nominal əmək haqqının illik artımına müvafiq olaraq pensiyalar da indeksləşdirilərək 11,4% artırılmışdır.

2021-ci ilin əvvəlindən etibarən dövlət başçımızın fərmanlarının nəticəsi olaraq sosial ödənişlərdə artım davam etdirildi. Prezidenet təqaüdünün məbləğində də artımlar müşahidə olundu. Belə ki, Az. Milli Qəhrəmanı təqaüdü 20%, şəhid ailələriyçün olan təqaüd 66,7%, müharibə əlilləri ilə bərabər tutulanlar, 20 Yanvar və müharibə əlilləri üçün olan təqaüdlər 50%-dən daha çox, II Dünya müharibəsində iştirak edənlərə ödənilən təqaüd 100%, Vətən Müharibəsi Qəhrəmanılarına ödənilən Prezident təqaüdünün aylıq miqdarı 2000 manat müəyyənləşdirildi.

Pensiyaların sonuncu artımı ümumi olaraq pensiyaçıların 93%-ni və ya onların 1 milyon 140 min nəfərini əhatə edir. Qeyd etmək lazımdır ki, digər pensiyaçılar xüsusi şərtlərlə pensiya alan şəxslərdir.

Əmək pensiyası 3 növdə karakterizə edilir:

- ❖ Ailə başçısını itirənlərə ödənilən əmək pensiyası;
- ❖ Əlilliyi olan şəxslərə ödənilən əmək pensiyası;
- ❖ Yaşa görə ödənilən əmək pensiyası.

Əmək pensiyalarının bir növündən digər növünə keçmək mümkündür. Lakin vətəndaş əmək pensiyasını yaşa görə alırsa, əlilliyə görə əmək pensiyasına keçməsi mümkün deyil. Əlilliyə və yaşa görə əmək pensiyası yığım və sığorta hissələrindən ibarətdir.

Fərdi hesabın sığortaya aid olan hissəsində qeyd olunmuş pensiya kapitalının gözlənlən pensiya ödənişinin müddətinin ayların sayına nisbəti əmək pensiyasının sığorta hissəsini təşkil edir. Habelə, fərdi hesabın yığıma aid olan hissəsində yığılan pensiya kapitalının gözlənilən pensiyaya aid ödəniş müddətinin aylarının sayına olan nisbəti şəklində hesablanan məbləğinə əmək pensiyasının yığıma aid olan hissəsi deyilir.

“Əmək pensiyaları haqqında” Qanuna müvafiq olaraq əmək pensiyalarının sığorta hissəsi hər il bir dəfə olmaqla ölkədə həmin il üzrə orta aylıq əmək haqqının illik artma tempinə və sığorta olunanların hesabındakı sığorta bölməsində qeyd edilən pensiyaya aid kapital isə istehlak qiymətləri indeksinə uyğun olaraq indeksləşdirilir. “Əmək pensiyası almaq hüququ olmayan şəxsin qanunvericilikdə nəzərdə tutulmuş hallarda yaşa görə, əlilliyə görə və ya ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququ vardır.”

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təyin etdiyi təqaüdlərdən əlavə təhsil ilə bağlı təqaüdlər də mövcuddur ki, bunlar da fərqlənən tələbələri motivasiya edərək, onların dərslərinə daha həvəslə yanaşmasına, həmçinin şəxsi inkişafları üçün müəyyən addımlar atmasına yardımçı olur.

Ümumilikdə isə onu qeyd etmək lazımdır ki, Xalqımızın qarşısında böyük ölçüdə xidmətləri ilə fərqlənən şəxslərə AR Prezidentinin fərdi təqaüdü ödənilir. Prezidentimizin 11 iyun 2002-ci ildə imzaladığı fərmana əsasən mədəniyyət, təhsil, iqtisadiyyat, elm, dövlət idarəçiliyi sahələrində, Azərbaycanın incəsənət və ədəbiyyat xadimlərinin və başqa sferalarda yüksək əməyi keçmiş şəxslərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması və xidmətlərinin qiymətləndirilməsi məqsədiylə təsis olunmuşdur.

Qeyd olunanlara əlavə olaraq isə müsbət bir hal kimi onu qeyd edə bilərik ki, Beynəlxalq Sosial Təminat Assosiasiyası Azərbaycanda sosial sahədə aparılan isla hatları, əldə olunan uğurlu nəticələri yüksək dəyərləndirir.

Qeyd olunanlara əlavə olaraq isə müsbət bir hal kimi onu qeyd edə bilərik ki, “Beynəlxalq Sosial Təminat Assosiasiyası” ölkəmizin sosial sferasında həyata keçirilən islahatları və bunun nəticəsində əldə edilən nəticələri yüksək qiymətləndirmişdir. Yuxarıda qeyd edilənləri həmin assosiasiyanın (BSTA) Prezidenti Bröyer Yoakim öz çıxışında qeyd etmişdir. Əlavə olaraq vurğulayıb ki, pandemiya zamanı sosial təminat səviyyəsinin yüksəldilməsi ölkə əhalisinin rifahında mühim əhəmiyyət daşımışdır. O Azərbaycanda bu sferaya xüsusi diqqət və qayğının olmasını təqdirəlayiq hal hesab edir.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜD TƏMİNATI SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Sosial müavinət sistemi: Aylıq müavinətlər və onların təhlili

Sosial müavinətlər sosial müdafiə və sosial təminat sisteminə aiddir. Bu haqda konkret müəyyən edilmiş akt hələ 2006-cı ilə kimi yox idi, tənzimlənmə isə ancaq ayrı-ayrı qanunvericiliyə aid aktlarla idi. Həmçinin, 2006-cı il 7 fevral tarixində "Sosial müvinətlər haqqında" qanun qəbul olunmuş və sosial müavinətlərə dair hüquqi əsaslar,onların verilməsi və təyini, eləcə də bu sahədə başqa məsələlər bu qanun çərçivəsində tənzimlənmişdir.

Sosial problemlərin həll edilməsi üçün günümüzdə cəmiyyət və dövlət bir yerdə çalışıb səy göstərməlidir.Yalnız bu problemlərin həlli insanların cəmiyyətdə həyat səviyyəsinin yüksəlməsinə yol aça bilər.İndiyədək bununla bağlı elmi ədəbiyyatda bir çox fikirlər olmuşdur. B.A.Kistyakovskinin "dövlətin ən önəmli vəzifəsləri yoxsul təbəqə ayağa qaldırılması və bu səbəbdən də cəmiyyətin layiqli yaşayış səviyyəsinin sosial-hüquqi önəminin tanınmasıdır" fikri buna misal ola bilər.

Sosial təminat hüquqları ümumi xarakterli olub,vətəndaşların hər birinə aid edilir.Hüququn bu hissəsinə əmək qabiliyyətsiz,ailə başçısını itirmiş şəxslərə pensiyaların,ehtiyacı olan ailələr üçün ünvanlı sosial yardımın,əmək qabiliyyətsizlərə sosial müavinətlərin təyini və ödənilməsi,təminatı az olan ailələrə ödənişsiz sosial xidmətlərin verilməsi və digər məsələləri,həmçinin onlarla bağlı bir çox başqa münasibətləri tənzimləyən hüquqi normaların birləşməsi kimi anlayış vermək mümkündür.Sosial müavinətlər insanların ən zəruri sosial təminat hüquqlarından biridir.

Sosial müavinətlər haqqında qanunvericilik, AR Konstitusiyası, Respublikamızın tərəfdaş olduğu beynəlxalq müqavilələr, bu Qanundan və AR digər qanunvericilik aktlarından ibarətdir.

Sosial müavinətlər barədə qanunvericilik aktları arasında öncəliklə AR Konstitusiyası qeyd edilməlidir. Konstitusiyanın 38-ci maddəsində qanunla qəbul edilmiş yaşa çatdıqda,xəstəlik,əlillik,ailə başçısını itirmək,əmək qabiliyyətini itirmək və qanunda müəyyən edilmiş başqa hallarda hər bir şəxsin sosial təminat haqqına malik olmasından bəhs edilir.Sözügedən maddəyə əsasən belə nəticə çıxarmaq olar ki,dövlət işləmək bacarığını və ya əmək qabiliyyətini itirmiş vətəndaşların ehtiyaclarını ödəmək üçün onlara lazımi qədər pul verilməsini və digər sosial xidmətlərlə bağlı münasibətlərin hüquqi tənzimlənməsini yerinə yetirir.

2020-ci il yanvarın 1-i üçün açıqlanmış statistik göstəricilərə görə Əmək və Əhalinin Sosial Müdafiə Fondunda 1270,6 min nəfər pensiya alan şəxs qeydiyyatda olmuş ki,bu rəqəm də ölkə əhalisinin sayının 12.8 faizinə bərabər idi. Bunların 58,4 faizi yaş, 30,2 faizi əlillik, 11.4 faizi isə ailə başçısını itirmək qarşılı ğında təqaüd alır. Qəbul edilmiş aylıq təqaüdlərin ortalama göstəricisi keçən ilin u yğun dövründən 19.1 faiz artaraq 263.6 manat olmuş və orta aylıq maaşların 41.5 f aizini təşkil etmişdir.

2020-ci il 1 yanvar tarixinə görə 401,2 min şəxsə aylıq sosial müavinətlərin verilməsi nəzərdə tutulmuşdur. Yaşa görə 82.4 min, əlillik 180.5 min,ailə başçısını itirmək 47 min nəfər,məhdud sağlamlıq imkanlarına görə müavinət alan 18 yaşadəklərin sayı 63 min,başqa müavinətlərin sayı isə 28,3 min olub.

Sosial müavinətlər müxtəlif kateqoriyaya aid şəxslərə qanun ilə nəzərdə tutulmuş aylıq və ya bir dəfəlik sosial yardımın verilməsidir.Aylıq sosial müavinətlər bunlardır:

- Müavinət yaşa görə
- Müavinət dövlət qulluqçuları üçün müddətsiz
- Müavinət ailə başçısını itirən şəxslərə
- Müavinət 18 yaşdan böyük şəxslərə əlilliyinə görə
- Müavinət 18 yaşa qədər uşaqlara məhdud sağlamlıq səbəbilə
- Nəqliyyat,kommunal və başqa xidmətlərə görə bəzi kateqoriya insanlara aidiyyatı icra hakimiyyəti orqanın müəyyən etdiyi müavinət

- Validideyn himayəsindən məhrum olan və ya valideynlərini itirən uşaqların himayəşilərinə (qəyyumlarına) verilən müavinət
- Müavinət 3 yaşa kimi uşaqlara qulluğa görə
- Bir sıra kateqoriya şəxslərin övladlarına 16 yaşına kimi (ümumtəhsil müəssisələri üzrə əyani təhsil 18 yaşadək) müvafiq icra hakimiyyət orqanı tərəfdən verilən müavinət
- Müavinət 5-dən çox övladı olan qadınlara
- Müavinətlər 1 yaşadək övladı olan aztəminatlı ailəyə
- Vəfat edən AR keçmiş Prezidenti arvadı (əri) və ya öhdəsindəki uşağına "AR keçmiş Prezidenti nə onun ailə üzvlərinin təminatları barədə" AR keçmiş Prezidenti və onun ailə üzvlərinin təminatları barədə" AR Konstitusiya Qanununa əsasən ödənilən müavinət təyin olunma şərtlərinə,mahiyyətinə və s. cəhətlərə görə aylıq sosial müavinətlər müxtəlif olur.

***Dövlət qulluqçuları üçün müddətsiz müavinət-*** "Dövlət qulluğu barədə" AR qanunvericiliyinə görə əlillik və ya pensiya yaşına çatması səbəbilə inzibati və yardımçı vəzifələrdə çalışan dövlət qulluqçuları könülllü surətdə işdən ayrıldıqda və müvafiq vəzifədə minimum staja (15 il) və əmək pensiyası almaq hüququ olmadıqda təyin olunur.Bu müavinətlər dövlət qulluqçularına ömürlük təyin edilir.Əgər dövlət qulluqçuları yenidən dövlət qulluğuna qəbul edilərsə o zaman müavinətin verilməsi dayandırılır.

Müavinətin məbləği müəyyən edilərkən dövlət qulluqçusunun sonuncu dəfə çalışdığı vəzifədə,işdən çıxdığı tarixdən əvvəlki 12 ay ərzində aldığı orta aylıq məvacibə nəzər yetirilir.Dövlət qulluqçusunun çalışdığı ayların sayı 12-dən az olarsa isə onun üçün müəyyən edilmiş müavinət faktiki qulluq edilmiş aylara əsasən təyin olunur. Dövlət maaşına vəzifə maaşı,mükafatlar və vəzifə maaşına əlavələr (qulluq stajı,ixtisas dərəcəsi və s. görə verilən əlavələr) aiddir.Dövlət qulluqçusu üçün təyin edilən aylıq müavinət miqdarı isə axırıncı əsas vəzifəsinə görə bu qaydaya əsasən hesablanmış dövlət məvacibinin 15 faizidir.

***Yaşa görə müavinət –*** Əmək pensiyası almaq hüququ olmayan və işləməyən şəxslər "Əmək pensiyaları haqqında" AR Qanununun müvafiq maddələri ilə qəbul

olunmuş yaş həddinə çatdıqda,həmin şəxslər (63 yaşına çatan kişilər və 60 yaşa çatan qadınlar) sosial müavinət ala bilərlər.

Beş və daha artıq uşaq dünyaya gətirmiş və 8 yaşa qədər böyütmüş qadınlarda yaş həddi hər uşağı üçün 1 il azaldılır.Əgər uşaq sağlamlıq cəhətdən yetərli deyilsə və ana 8 yaşınadək tərbiyə edirsə o zaman təqaüdə 5 il erkən çıxır.Ana vəfat edərsə,anayla nikaha xitam verildiyinə və ya valideynlik hüququndan məhrum olunduğuna görə 5 və daha artıq uşağı əlavə nikah bağlamadan təkbaşına səkkiz yaşa qədər böyüdən ataların,həmçinin,5 və daha artıq uşağı təkbaşına səkkiz yaşına qədər böyüdən ataların və ya qəyyum kişilər təqaüdə 5 il erkən çıxır.

Yaşa görə pensiyalar ömürlük olur.Əgər bu müavinəti alan şəxs işləməyə başlayarsa o zaman müavinət dayandırılır. Hazırda bu müavinəti almaq üçün heç bir dövlət qurumuna müraciət etmək və ya sənəd toplamağa gərək yoxdur.

***18 yaşdan böyük əlilliyi olanlara əlillik müavinəti***- Hər hansı bir şəxsin əmək qabiliyyəti yoxdursa və əmək pensiyası hüququ yoxdursa ona bu səbəbə görə müavinət verilir.Əlillik ancaq əlillik müddəti ərzində verilir. Şəxs əmək pensiyası almağa başladıqda müavinətin verilməsi dayandırılır.Məbləğlər aşağıdakı kimi təyin olunub:

1-ci dərəcə - 150 m.

2-ci dərəcə – 130 m.

3-cü dərəcə – 110 m.

Hazırda bu müavinətin təyini heç bir dövlət qurumuna müraciət etmədən və hansısa bir sənəd toplamadan proaktiv olaraq həyata keçirilir.

***18 yaşadək uşaqlara məhdud sağlamlıq imkanlarına görə müavinət***- Şəxsin sağlamlıq imkanları məhdud olduqda və əmək pensiyası almaq hüququ olmadıqda ona bəhs edilən aylıq müavinət təyin edilir.

18 yaşına kimi uşaqlara sağlamlıq imkanları məhdud olduğu müddətcə müavinət verilir.Əgər əmək pensiyası almaq hüququnu qazanarsa o zaman müavinətin veril-

məsi avtomatik dayandırılır. Müavinətin məbləği 150 m. təşkil edir.

Qeyd: 01.01.2020-ci ildən etibarən sözügedən müavinəti alan uşaqlar eyni vaxtda həmçinin ailə başçısını itirməyə görə də sosial müavinət əldə edə bilər.

***Ailə başçısın itirməyə görə müavinət-*** Şəxsdə əmək qabiliyyəti yoxdursa və əmək pensiyası almırsa yaşı və əmək qabiliyyətindən asılı olmadan valideynləri,qardaşı,bacısı,baba və nənələrindən biri həyatını itirmiş insanın 8 yaşına qədər övladlarına baxaraq işləmədikdə ona ailə başçısın itirməyə görə müavinət verilir.Müavinətin verilmə müddəti aşağıdakı kimidir:

- Vəfat edənin uşaqlarına – 18 yaşı tamam olanadək (əyanı təhsil alırsa təhsilini başa çatdıranadək,ancaq maksimum 23 yaşadək)
- Vəfat edənin uşağının əgər 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdud olması müəyyənləşdirilmişdirsə ona 18 yaşdan yuxarı - əlillik müddətincə
- Vəfat edənin 8 yaşına kimi uşaqlarına baxıb və işləməyən (yaşı və əmək qabiliyyətinin olub olmaması fərq etmir) valideyləri,qardaşı,bacısı,baba və nənələrindən birinə - uşağın 8 yaşına qədər.

Şəxs əmək pensiyası almaq hüququnu əldə edərsə pensiyanın verilməsinə xitam verilir. Müavinət 80 m. civarındadır.

***Bəzi kateqoriya şəxslərə aidiyyatı orqan tərəfindən nəqliyyat,kommunal və s. xidmətlərə görə ödənilən müavinət.*** – bəzi kateqoriya şəxslərə şəhid ailəsi üzvlərinin hamısı,həmçinin,valideynləri vəfat etmiş və valideyn himayəsi görməyən uşaqlar aiddir. Bu müavinət əmək pensiyası almaq hüququ olmayan şəxslərə təyin edilir.

Onu alan şəxs əmək pensiyası almaq hüququnu qazanarsa müavinətin verilməsi dayandırılır. Müavinət məbləği belədir:

- Şəhid ailəsindən olan üzvlərin hamısına (nəqliyyat,kommunal və s. xidmətlər üçün) – 12 m.
- Valideynlərini itirən və valideyn himayəsi görməyən uşaqlar üçün (nəqliyyat,kommunal və s. xidmətlər) – 5 m.

***3 yaşına qədər uşağa qulluğa əsasən müavinət –*** 3 yaşına qədər uşaqlara qulluq edən, aidiyyatı orqan tərəfdən müəyyənləşdirilən şəxs qismən ödənişi olan sosial məzuniyyətdə olarkən verilir. Müavinətin ödənilməsi aidiyyatı orqan

tərəfindən şəxs qismən ödənişli sosial məzuniyyətə çıxdığı vaxtdan məzuniyyətin bitdiyi günədək həyata keçirilir.Müavinətin verilməsi şəxsin qismən sosial məzuniyyətdən qayıtdığı andan etibarən dayandırılır. Müavinət məbləği aşağıdakı kimi qəbul edilmişdir:

- Bir yaş yarıma kimi uşağa qulluq qarşılığında – 44 m.
- Bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə - 28 m.

***Valideynlərini itirən və valideyn himayəsindən məhrum olan uşaqları himayə edənlərə (qəyyumlarına) müavinət*** – Aidiyyatı orqan tərəfdindən himayəçi (qəyyum) təyin edilən şəxslər AR müvafiq qanununa görə sosial yardımı alma hüququ olmadığı təqdirdə və haqqında himayəçilik (qəyyumluq) müəyyən edilmiş uşaqların tam dövlət təminatı olmadıqda sözügedən müavinət ödənilir. Müavinət aidiyyatı orqan tərəfindən himayəçilik (qəyyumluq) ləğv edilərsə müavinətin verilməsinə xitam verilir. Müavinət 100 m. təşkil edir.

***Zəif təminatlı ailələrə uşağının 1 yaşına qədər verilən müavinət-*** Ailənin “Ünvanlı dövlət sosial yardımı haqqında” AR qanununa görə müvafiq yardımı alma hüququ olarsa qeyd edilən müavinət ödənilir. Müavinətin verilməsi uşağın 1 yaşı tamam olan ayın sonuna qədər müəyyən edilib. Ödənişin məbləği 55 m. təşkil edir (Cədvəl 1: Əlavə1.).

***Vəfat edən AR keçmiş Prezidenti arvad (əri) və ya öhdəliyindəki uşağa “AR əvvəlki Prezidenti və ailə üzvlərinin təminatı barədə” AR Konstitusiya Qanununa görə ödənilmiş müavinət –*** Müvafiq qanun əsasında müəyyən edilmiş hallarda qeyd edilən müavinət verilir. Müavinət müddəti “Azərbaycan Respublikası keçmiş Prezidenti və onun ailə üzvlərinin təminatları haqqında” AR Konstitusiya Qanunuyla müəyyənləşdirilir. Həyatını itirmiş AR keçmiş Prezidentinin öhdəsindəki uşağı 18 yaşına çatdığı təqdirdə müavinətin verilməsinə xitam verilir. Müavinət keçmiş prezidentin pensiyasının 50 faizi civarında verilir (Əgər keçmiş prezident xidməti dövründə həyatını itirmişdirsə o zaman ona ödənilən pensiya qədər təşkil edir).

***Beşdən artıq uşaqlı qadınlara müavinət-*** Beşdən artıq uşaq dünyaya gətirmiş və tərbiyə etmiş qadınlara,uşaqların sağ olması halında, bu müavinətin verilməsinə

səbəb olan uşaq (altıncı) bir yaşına gəldikdə müavinətin ödənməsinə başlanır.Sözügedən pensiya uşağa 18 yaşı tamam olan ayın sonuna qədər verilir.Hər uşaq üçün 55 m. təyin edilmişdir.

***Aidiyyatı orqan tərəfindən müəyyənləşdirilmiş şəxslərin 16 yaşına qədər (təhsili əyani olanlar üçün 18 yaşa kimi) övladlarına müavinət – bəzi kateqoriya şəxslər deyəndə müəyyən kateqoriyalar nəzərdə tutulmuşdur:***

- ✓ Şəhid uşaqları
- ✓ Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları
- ✓ 1990-cı il 20 Yanvar hadisələri nəticəsində əlil qalmış şəxslərin övladları
- ✓ Çernobıl qəzası nəticəsində 1-ci və 2-ci qrup əlillik alan, yaxud həyatını itirmiş valideynlərin övladları
- ✓ Çernobıl qəzası sonrası nəticələrin aradan qaldırılması iştirakçılarının dispanserdə qeydiyyatda olan övladları

Müavinətin ödənilmə müddəti :

- ➢ Ümumtəhsil məktəblərdə əyani oxuyanlara - 18 yaşı tamam olmuş ay sonuna kimi (təhsil vaxtından çox olmamaq şərtilə).
- ➢ Uşağın 16 yaşı tamam olmuş ay sonuna kimi

Müavinət məbləği aşağıdakı kimidir:

- Şəhid uşaqlarının hərəsinə (16 yaşa kimi, ümumtəhsil müəssisələri üzrə əyani oxuyanlar üçün 18 yaşa qədər) – 21 m.
- Müddətli həqiqi hərbi xidmətdə hərbi qulluqçularının hər bir uşağına - 100 m.
- 1990-cı il 20 Yanvar hadisələri nəticəsində əlil qalmış şəxslərin övladlarına (16 yaşa kimi, ümumtəhsil müəssisələrində əyani oxuyanlar üçün 18 yaşa kimi) – hər uşağa 15 m.
- Çernobıl qəzası nəticəsində 1-ci və 2-ci qrup əlillik alan, yaxud həyatını itirmiş valideynlərin övladlarına və Çernobıl qəzası sonrası nəticələrin aradan qaldırılması iştirakçılarının dispanserdə qeydiyyatda olan övladlarına (16 yaşa kimi, ümumtəhsil müəssisələrində əyani oxuyanlar üçün 18 yaşa kimi) hər uşağa 15 m.

Valideynlərini itirən və valideyn himayəsi görməyən uşaqların 266 qəyyumuna aylıq müavinətlər müəyyən edilmişdir. Həmçinin, şəhid ailələrinin,müharibə və ya 1990-cı il 20 Yanvar hadisələri nəticəsində əlil qalmış şəxslərin, Çernobıl qəzası nəticəsində 1-ci və 2-ci qrup əlillik alan, yaxud həyatını itirmiş şəxslərin, Çernobıl qəzası sonrası nəticələrin aradan qaldırılması iştirakçılarının və müddətli hərbi xidmət qulluqçularının 8.6 min ailəsinə 14.6 min uşağa aylıq müavinət təyin edilmişdir. Bundan başqa, 1655-dək bir yaşadək uşağı olan 1654 zəif təminatı olan ailəyə və beşdən artıq övladlı 2.7 min qadına 9.1 min uşağa pensiya,xəsarət və ya peşə xəstəliyi sonrası zərərçəkmiş 392 insana isə kompensasiya müəyyən edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsin Nazirliyi tərəfindən respublikamızda uşaq reabilitasiyası müəssisələr şəbəkəsi genişləndirilmə işləri üzrə Qəbələ və Şəmkirdə Uşaq Reabilitasiya Mərkəzləri tikilir. Hər biri 50 çarpayı olan mərkəzlərdə ildə 1800-ə kimi sağlamlıq imkanı məhdud uşaq əhəmiyyətli fizioterapevtik müalicə proseduru əsasında reabilitasiya xidməti ilə təmin olunacaq. Qəbələ, həmçinin Şəmkir Uşaq Reabilitasiya Mərkəzinin bu il istismara verilməsi nəzərdə tutulmaqdadır. Xatırlatmaq lazımdır ki, son iki il ərzinə və cari ilin ilk rübü Nazirliyin 12 reabilitasiya, həmçinin sosial xidmət müəssisəsi yaxşı təmir edilərək, təkrar qurulmuş formada istifadəyə verilib. Ümumiyyətlə, nazirliyin təzə reabilitasiya müəssisələri açılmasının sayəsində hər il reabilitasiya xidmətləri ilə təmin olunanların sayı iki dəfə artaraq 30 minə çatacaqdır (https://azvision.az/news/259059/iki-rayonda-usaq-reabilitasiya-merkezi-tikilir.html).

35 il bundan öncə, 1986-cı il 26 aprel ayında Ukrayna daxilində Çernobıl Atom Elektrik Stansiyası üzrə baş verən dəhşətli qəza nəticələrinin aradan götürülməsi ilə əlaqəli əlilliyi olan şəxslərin sosial müdafiəsi diqqət mərkəzində saxlanır, həmçinin Prezident İlham Əliyevin tapşırığı üzrə həmin istiqamətdə tədbirlər ilbəil gücləndirilir. Bunlara aşağıda göstərilənlər aiddir:

- Əlilliklərinin səbəblərinə əsasən Çernobıl əlillərinin hər biri "Çernobıl AES hərbi xidmətlə bağlı” əlilliyi olan və "Çernobıl AES-də qəza ləğvi ilə bağlı” əlilliyi olanlar olaraq iki qrupda müəyyən ediliblər.

▪Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tərəfindən Çernobıl AES-dəki hərbi xidmətlə əlaqəli əlilliyi olan şəxslərə keçən dövrdə 300-ə qədər mənzil, 400-ə qədər avtomobil verilib.

▪Prezident İlham Əliyevin 25-i yanvar 2021-ci il tarixi Sərəncamına əsasən müharibə əlilləri, şəhid ailələri ilə yanaşı, uçota alınması tarixindən asılı olmadan, Çernobıl AES-dəki qəzanın ləğvi (eyni zamanda, hərbi xidmət vəzifələri (xidməti vəzifələr) yerinə yetirilməsi) ilə bağlı əlilliyi müəyyən olunmuş şəxslərin isə 2021–2025-ci illər mənzil yaxud da fərdi evlə təminat nəzərdə tutulmuşdur ki, bu isə onlara xüsusi qayğının təzahür etdirir.

▪Çernobıl AES-dəki hərbi xidmətlə bağlı əlilliyi olan insanlara Prezidentin aylıq təqaüdləri (1-ci dərəcə üzrə 400 manat, 2-ci dərəcə üzrə 350 manat, 3-cü dərəcədə 300 manat) verilməkdədir.

▪Hər iki qrup əlilliyi olan insanların əlillik üzrə aylıq müavinət (1-ci dərəcədə əlilliyə əsasən 150 manat, 2-ci dərəcədə əlilliyə əsasən 130 manat, 3-cü dərəcədə əlilliyə əsasən 110 manat) yaxud da əlillik üzrə əmək pensiyası ilə təmin olunurlar. (bir çoxu pensiya ilə təmin edilirlər və onlara ödənilmiş pensiyaların minimum həcmi 260 manatdır)

▪Onlardan 1-ci dərəcədə əlilliyi olan şəxslər üçün Prezident verdiyi aylıq təqaüdü (130 manat), həmçinin 1-ci dərəcə əlillik olan şəxslərə qulluq edən insanlara Prezident aylıq təqaüdü (50 manat) ödənilməkdədir.

▪Çernobıl qəzasının nəticəsində I və II dərəcə əllillikləri müəyyən olunmuş, yaxud vəfat edən valideynlərin uşaqlarına, həmçinin Çernobıl qəzasının nəticələrinin aradan götürülməsi iştirakçılarının dispanser qeydiyyatındakı uşaqlarına aylıq sosial müavinətlər verilir.

▪Həm Çernobıl AES-dəki hərbi xidmətlə bağlı, həm də qəza ləğvi ilə bağlı əlilliyi olanların müalicəsi üçün hər il onlara birdəfəlik müavinətlər ödənilir.

▪Çernobıl AES qəzasıyla bağlı əlilliyi olan insanların tibbi-sosial reabilitasiyaları, sosial-məişət problemlərinin həll edilməsi, onların sanatoriya-kurort müəssisələri üçün yollayışla təminatları və s. istiqamətlərdə də uyğun işlər aparılır.

Çernobıl AES qəzasının nəticələrinin aradan götürülməsi ilə bağlı əlilliyi olan şəxslərin sayı hal-hazırda 5500-dən artıqdır. Onların 2510-u Çernobıl AES-dəki hərbi xidmətlə bağlı, 3 000-i  də "Çernobıl AES-də qəza ləğvi ilə bağlı" əlilliyi olanlardır (http://economic.az/cernobil-elillerinin-sosial-teminati-sahesinde-hansi-isler-aparilir/#).

## 2.2. Birdəfəlik və dövri müavinətlər

Respublikamızın ərazisində daimi yaşamaq hüququ olan lakin vətəndaşlığı olmayan şəxslərin, həmçinin əcnəbilərin və hər bir vətəndaşımızın sosial müavinət almaq hüququ vardır. Şəxsin sosial müavinət almaq hüququ formalaşdıqdan sonra o müavinətin təyin  edilməsi üçün DSMF-in struktur bölməsinə və yaxud öz yaşayış yerinə uyğun "DOST" mərkəzinə müraciət etməlidir.

Sosial müavinətin təyin edilməsinə baxılması – Müavinatın təyin edilməsi ilə əlaqədar müraciətə müavinətin qeyd olunduğu gündən ən gec 10 gün müddətinə baxılır və müvafiq olaraq qərar qəbul olunur.  Əgər müavinətin təyin edilməsinə razılıq verilməzsə, yəni imtina edilərsə, imtinanın səbəbləri göstərilməklə 5 gün ərzində müraciətçiyə rəsmi məlumat verilir. Müraciət edən şəxs qərarla razılaşmazsa, həmin qərardan inzibati formada səlahiyyətli orqan və ya vəzifəli şəxs və yaxud məhkəməyə şikayətini bildirmək hüququna malikdir.

Sosial müavinətlərin birdəfəlik ödəniş formasının aşağıda qeyd olunan növləri mövcuddur:

- Dəfn üçün müavinət;
- Cəza çəkmə müəssisələrindən azad olunmuş sosial və tibbi köməkliyə ehtiyacı olanlara ödənilən müavinət;
- Uşağın dünyaya gəlməsinə görə müavinət;
- Radiasiya qəzasının nəticəsi olaraq zərər çəkmiş insanlara müalicə məqsədiylə hər il ödənilən müavinət.

Radiasiya qəzasının nəticəsi olaraq zərər çəkmiş insanlara müalicə məqsədiylə hər il ödənilən müavinət- Şəxs radiasiya qəzasının nəticəsi olaraq əlilliyinin müəyyənləşdirildiyini və Çernobıl AES qəzasının nəticəsində zərər görmüş

şəxslərin 18 yaşına qədər olan uşaqlarının qəzanın nəticəsi olaraq sağlamlıq imkanlarının məhdud olduğunu təsdiqləyən müvafiq icra hakimiyyəti orqanına məxsus arayış təqdim olunduqda qeyd olunan müvafiq müavinət təyin olunur. Qeyd olunan müavinət sağlamlıq imkanlarının məhdudluğu o cümlədən, əlillik müddətində hər il bir dəfə olmaqla müraciətin qeyd edildiyi aydan sonrakı ayın birindən etibarən təyin edilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən 2019-cu il əvvəlindən pensiya təyinatı avtomatlaşdırılıb. Nəticədə ölkəmizdə ilk proaktiv xidmət olaraq, pensiya hüququ yaranmış şəxs özü müraciət etmədən və sənəd təqdim edilmədən ona elektron qaydada pensiya təyin edilir (https://banco.az/az/news/daha-bir-elektron-xidmet-istifadeye-verilib).

Uşağın dünyaya gəlməsinə görə ödənilən müavinət- Qeyd olunan müavinət MİHO tərəfindən verilən arayış təqdim olunduqdan sonra təyin olunur. Uşağın dünyaya gəlməsinə görə ödənilən birdəfəlik müavinat müraciətin olunma tarixindən asılı olmayaraq ödənilir. Müvafiq müavinətin məbləği 200( iki yüz) AZN-dir.

**Cədvəl 2: İşləyən əhaliyə hökümət tərəfindən verilmiş ayrı-ayrı müavinətlər (Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin məlumatlarına əsasən)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Uşağın anadan olmasına görə birdəfəlik müavinətlər: | | | | | |
| şəxslərin sayı, min nəfər | 53,9 | 54,379 | 51,4 | 51 | 56,3 |
| məbləğ, min manat | 4818,5 | 5172,7 | 5041,3 | 5323,2 | 8778,9 |
| Dəfn üzrə müavinət: | | | | | |
| şəxslərin sayı, min nəfər | 41,4 | 41,977 | 43,352 | 42,2 | 39,7 |
| məbləğ, min manat | 12242 | 13496,26 | 14122,37 | 14124,27 | 18162,5 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/)

**Dəfn üçün ödənilən müavinət -** Əmək pensiyası alan şəxs, dövlət qulluqçusu, ailə başçısını itirməyə, əliliyə, yaşa və sağlamlıq imkanları məhdud olan 18 yaşına

qədər uşaqlara ödənilən müavinatlardan hər hansı biri təyin olunmuş, "İşsizlikdən sığorta haqqında" AR qanununa müvafiq olaraq sığorta ödənişi almış şəxslər vəfat etdikdə müvafiq birdəfəlik ödəmə təyin edilir. Əmək pensiyası alan şəxs dünyasını dəyişdikdə, əmək pensiyasının vəfat tarixinə olan minimum məbləğinin 3 misli onun ailəsinə dəfn müavinəti olaraq ödənilir. İşsizlikdən sığorta ödənişi və ya sosial müavinət alan şəxs dünyasını dəyişdikdə isə 300(üç yüz) azn dəfn müavinəti(birdəfəlik) ödənilir.

**Cəza çəkmə müəssisələrindən azad olunmuş sosial və tibbi köməkliyə ehtiyacı olan şəxslərə ödənilən müavinət-** Ömürlük azadlıqdam məhrumetmə və müəyyən müddət üçün azadlıqdan məhrum etmə cəzalarını çəkmədən azad olunmuş şəxslərə, qanunvericiliklə müəyyən olunmuş əsaslarla, penitensiar müəssisələrdən verilən arayışa əsasən müvafiq müavinat təyin olunur. Cəza çəkmə müəssisələrindən azad olunmuş sosial və tibbi köməkliyə ehtiyacı olan şəxslərə ödənilən müavinətin məbləği minimum əmək haqqının 4 misli məbləğində müəyyləşdirilmişdir.

2020-ci ildə ümumi olaraq ƏƏSMN tərəfindən penitensiar müəssisələrdən cəzası bitərək azad edilmiş 5508 nəfərə, 77643 uşağın dünyaya gəlməsinə görə 75996 ailəyə və radiasiya qəzasının nəticəsində zərər görmüş şəxslərin 3991 nəfərə birdəfəlik sosial müavinət ödənmişdir.

1 Yanvar 2021-ci il tarixinə olan statistik göstəricilərə nəzər yetirdikdə görərik ki, 77.300 az təminatlı ailələrin 323, 0 min üzvü sosial yardım almışdır. Həmçinin, qeyd etmək lazımdır ki, onun bir nəfər üçün olan orta aylıq məbləği 57,20 azn təşkil edir.

## 2.3. Təqaüd təminatı sistemi və təqaüdlərin növləri

Pensiya təminatı dövlətin sosial siyasətində önəmli yer tutur. 1993-1998 -ci illərdə respublikamızda bütün pensiyaların orta səviyyəsi 30,6 dəfə, o cümlədən yaşa görə pensiyalar 31,4 dəfə, əlilliyə görə 28,3 dəfə, ailə başçısınm itirilməsinə görə 34,5 dəfə, sosial pensiyalar isə 26,8 dəfə artırınmışdır. Təqaüdlərin aşağıda qeyd olunan növləri mövcuddur:

- 20 Yanvar şəhidlərinin ailə üzvlərinə ödənilən AR Prezidentinin təqaüdü;
- 20 Yanvar 1990-ci hadisələri və ya müharibə zamanı əlilliyi yaranan şəxslərə AR Prezidentinin təqaüdü;
- AR Milli Qəhrəmanı adı təqdim edilmiş şəxslərə ödənilən AR Prezidentinin təqaüdü;
- Şəhidərin ailə üzvlərinə ödənilən AR prezidentinin təqaüdü;
- Peşə xəstəliyi və əmək zədəsi ilə, hərbi xidmət zamanı xəstələnmə ilə, ümumi xəstəliklə, Çernobıl AES-də qəzanın ləğvi ilə, hərbi əməliyyatlar keçirilən ərazidə olmaqla əlaqədar I qrup əlilliyi formalaşan şəxslərə ödənilən AR Prezidentinin təqaüdü;
- Fəxri adların verilməsinə görə ödənilən AR Prezidentinin təqaüdü;
- Sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan şəxslərə və ya I qrup əlillərə qulluğa görə əmək pensiyasını sığorta hissəsinə əlavənin əvəzinə sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan uşaqlara və I qrup əlilliyi mövcud olan şəxslərə qulluq edənlərə AR Prezidentinin təqaüdü;
- Əfqanıstanda Sovet qoşunlarında fəaliyyət göstərərkən məhkəmə qərarı ilə ölmüş eləan edilən, həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə ödənilən AR Prezidentinin təqaüdü;
- Müharibə veteranlarına nəqliyyat, kommunal və başqa xidmətlərə görə ödənilən sosial müavinət, bundan əlavə döyüş ordusunun tərkibində xidmət edən müharibədə iştirak etmiş şəxslərin əmək pensiyalarının sığorta hissəsinin əlavəsi əvəzinə ödənilən AR Prezidentinin təqaüdü;
- II Dünya müharibəsində Leninqrad şəhərini mühasirəyə alan zaman idarə, təşkilat və müəssisələrdə işləmiş və 1941-1945ci ilərdə baş vermiş Böyük Vətən

müharibəsində iştirak etmiş “ Leninqradı mühasirəsində yaşayan”döş nişanı, “Leninqradın müdafiəsinə görə” medalıyla təltif olunmuş şəxslərə AR Prezidentinin təqaüdü;

- AR-nın “Vətən Müharibəsi Qəhrəmanı” adı təqdim edilmiş şəxslərə AR Prezidentinin təqaüdü;
- Ümumi səbəblərdən 1-ci dərəcəli gözdən əlil olanlara AR Prezidentinin təqaüdü;
- Təhsil müəssislələrində və ya təşkilat və müəssisələrdə ən azı 25 il fəaliyyət göstərmiş, əmək pensiyası almaq hüququ olan, elmi dərəcəsi olan şəxslərə AR Prezidentinin təqaüdü.

20 Yanvar 1990-ci hadisələri və ya müharibə zamanı əlilliyi yaranan şəxslərə AR Prezidentinin təqaüdü- ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə, döyüş əməliyyatı aparılan ölkələrdə və yaxud cəbhədə vətənə olan borcunu yerinə yetirməklə əlaqədar, bundan əlavə hərbi xidmət zamanı vəzifələrini icra edərkən, 20 Yanvar hadisələriylə bağlı sağlamlıqlarını itirərək əlillik qazanmış şəxslərin şücaət və mərdliklərini vurğulayaraq onlara dövlət qayğısını daha da artırmaq və sosial müdafiəsini gücləndirmək məqsədiylə “Müharibə əlillərinə Azərbaycan Respublikasının Prezidentinin təqaüdünün təsis olunması haqqında” AR Prezidentinin 9 sentyabr 2008-ci ildə imzaladığı 823 n-li Fərmanda dəyişiklik edilərək təqaüdün aylıq ödənişi aşağıdakı kimi müəyyənləşdirilib:

1-ci qrup əlilliyi olanlara– 400 azn;

2-ci qrup əlilliyi olanlara- 350 azn;

3-cu qrup əlilliyi olanlara- 300 azn;

Artımlar 1 yanvar 2021-ci ildən tətbiq edilir.

**20 Yanvar şəhidlərinin ailə üzvlərinə ödənilən AR Prezidentinin təqaüdü-** “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis olunması barədə AR Prezidentinin 2006-ci il 19 yanvar 350 n-li Fərmanına edilmiş dəyişikliyə görə qeyd olunan təqaüdün məbləği 500 azn olaraq müəyyənləşdirilmişdir. Artımlar 1 yanvar 2021-ci ildən tətbiq edilir.

**Şəhidərin ailə üzvlərinə ödənilən AR prezidentinin təqaüdü-** AR Prezidentinin 19 dekabr 2006-ci ildə imzaladığı "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" haqqında 493 n-li Fərmana edilən dəyişikliyə görə təqaüdün məbləği aylıq olaraq 500 azn müəyyənləşdirilmişdir. Artımlar 1 yanvar 2021-ci ildən tətbiq edilir.

**AR-nın "Vətən Müharibəsi Qəhrəmanı" adı təqdim edilmiş şəxslərə AR Prezidentinin təqaüdü-** AR Prezidentinin 30 dekabr 2020-ci il 1226 n-li Fərmanına əsasən AR-nın "Vətən Müharibəsi Qəhrəmanı" adı təqdim edilmiş şəxslərə 1 yanvar 2021-ci il tarixindən etibarək Prezident təqaüdü təsis olunaraq aylıq 2000 azn məbləğində ödənilmişdir.

**AR Milli Qəhrəmanı adı təqdim edilmiş şəxslərə ödənilən AR Prezidentinin təqaüdü-** AR Prezidentinin 14 iyul 2005-ci il 258 n-li "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanında edilən dəyişiklik Az. Milli Qəhrəmanı adı təqdim edilmiş şəxslərin sosial cəhətdən müdafiəsini gücləndirmək məqsədi daşıyır. Təqaüdün məbləği artırılaraq aylıq olaraq 1800 azn təyin edilmişdir. Artımlar 1 yanvar 2021-ci ildən tətbiq edilir.

**Fəxri adların verilməsinə görə ödənilən AR Prezidentinin təqaüdü-** "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" və "Fəxri adlara görə aylıq təqaüdlərin artırılması" haqqında AR Prezidentinin 4 iyul 2005-ci il 878 n-li Sərəncamında edilən dəyişikliyə əsasən 1 mart 2018-ci ildən etibarən təqaüdlərin məbləği artırılaraq "Əməkdar" fəxri adına görə 100 azn, "Xalq" fəxri adına görə isə 150 azn olaraq müəyyənlədirilmişdir.

**Peşə xəstəliyi və əmək zədəsi ilə, hərbi xidmət zamanı xəstələnmə ilə, ümumi xəstəliklə, Çernobıl AES-də qəzanın ləğvi ilə, hərbi əməliyyatlar keçirilən ərazidə olmaqla əlaqədar I qrup əlilliyi formalaşan şəxslərə ödənilən AR Prezidentinin təqaüdü -** Peşə xəstəliyi və əmək zədəsi ilə, hərbi xidmət zamanı xəstələnmə ilə, ümumi xəstəliklə, Çernobıl AES-də qəzanın ləğvi ilə, hərbi əməliyyatlar keçirilən ərazidə olmaqla əlaqədar I qrup əlilliyi formalaşan şəxslərə ödənilən AR Prezidentinin təqaüdünün təsisi barədə AR Prezidentinin 17 mart

2014-cü il 128 n-li Fərmanında olunmuş dəyişikliyə görə təqaüdün məbləği aylıq 130 azn olaraq müəyyənləşdirilmişdir. Artımlar 1 yanvar 2021-ci ildən tətbiq edilir.

**Əfqanıstanda Sovet qoşunlarında fəaliyyət göstərərkən məhkəmə qərarı ilə ölmüş eləan edilən, həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə ödənilən AR Prezidentinin təqaüdü-** Əfqanıstanda Sovet qoşunlarında fəaliyyət göstərərkən məhkəmə qərarı ilə ölmüş eləan edilən, həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə ödənilən AR Prezidentinin təqaüdünün təsisi haqda 11 avqust 2014-cü il 244 n-li Fərmanda edilən dəyişikliyə görə təqaüdün məbləği aylıq 500 azn olaraq müəyyənləşdirilmişdir. Artımlar 1 yanvar 2021-ci ildən tətbiq edilir.

**Sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan şəxslərə və ya I qrup əlillərə qulluğa görə əmək pensiyasını sığorta hissəsinə əlavənin əvəzinə sağlamlıq imkanı məhdud olan 18 yaşına kimi olan uşaqlara və I qrup əlilliyi mövcud olan şəxslərə qulluq edənlərə AR Prezidentinin təqaüdü -** 2019-cu ilin 25 fevral tarixində AR Prezidentinin 992 n-li "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına müvafiq olaraq Sağlamlıq imkanı məhdud olan 18 yaşına kimi olan şəxslərə və ya I qrup əlillərə qulluğa görə əmək pensiyasını sığorta hissəsinə əlavənin əvəzinə sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan uşaqlara və I qrup əlilliyi mövcud olan şəxslərə qulluq edənlərə AR Prezidentinin təqaüdü 50 azn məbləğində təsis edilmişdir.

**II Dünya müharibəsində Leninqrad şəhərini mühasirəyə alan zaman idarə, təşkilat və müəssisələrdə işləmiş və 1941-1945ci ilərdə baş vermiş Böyük Vətən müharibəsində iştirak etmiş " Leninqradı mühasirəsində yaşayan"döş nişanı, "Leninqradın müdafiəsinə görə" medalıyla təltif olunmuş şəxslərə AR Prezidentinin təqaüdü-** təqaüd 2 iyul 2012-ci il 2320 n-li AR Prezidentinin Sərəncamına olunmuş dəyişikliyə görə aylıq olaraq 300 azn məbləğində müəyyən olunub.

Dövlətin gerçəkləşdirdiyi sosial müdafiə siyasətinin başlıca istiqamətlərinin biri pensiya təminatı sayılır. Ölkəmiz mustəqilliyin ilk illəri iqtisadiyyatın ləng inkişaf

etməsi, büdcənin maliyə dayanığlılığı olmamasına görə pensıya təminatı yönündə tədbirlər görülməsində əngəllər əmələ gəlmişdir. Bununla birgə, ölkəmiz üçün bu dövr üzrə başqa bir çətinlik belə sosial sığortalara əsaslanmayan pensiya təminat ssteminin sovet dövrü qalması idi, belə ki, bu isə bazar iqtisadiyyatına məxsus olmayan hal idi. Ancaq, 1993-cü ildən etibarən ölkəmizdə siyasi stabilliyin təmin olunması ilə əldə edilmiş dayanıqlı və daimi iqtisadi inkişaf vətəndaşların sosial müdafiələrinin gücləndirilməsi üçün başlıca amillərdən biri oldu. Məhz həmin dövrdə pensya təminat sisteminin beynəlxalq təcrübə üzrə uygun olaraq təkrar qurulması və inkişafı üçün nail olunması yönündə sosial siyasətin strateji planlaşdırılma istiqaməti kimi müəyyən edildi.

Pensiya təminatı dövlətimiz tərəfindən tənzimlənir. Bu isə, pensiya təminatının dövlət konsepsiyasının əsasında icra olunmasını tələb edir. Pensiya təminatının dövlət konsepsiyası pensiya sisteminin 2 vacib funksiyasını gerçəkləşdirməsinə yönəldilməlidir. Bu funksiyalardan biri sosial funksiya olub əmək qabiliyyətin itirmiş şəxslərin hamısının normal həyat şəraitin təmin etməyi nəzərdə tutursa, ikinci funksiya pensiya ilə əmək fəaliyyətinin arasındakı asılılığı təmin etməlidir. Sadə şəkildə desək, əmək fəaliyyəti gələcək pensiya təminatı üçün əsas olmalıdır. 193 Pensiya sisteminin formalaşdırılması bir sıra prinsiplərdən asılıdır. Birinci prinsip nəsillərin həmrəyliyi adlanır. Bu prinsipin mahiyyəti ondadır ki, işləyən nəsil pensiyada olanları təmin edir. İkinci prinsip adekvathq prinsipidir. Eynilik prinsipinə görə, pensiyaçının aldığı pensiya onun milli iqtisadiyyata əməyi ilə uyğun olmalı, pensiyanın miqdarı isə fəal əmək fəaliyyəti dövründə həyata keçirilmiş ödəmələrlə müəyyənləşdirilməlidir. Dövlət sosial təminatı pensiya təminatı qanunlarına görə hamının bərabərliyini, yaşayış yerindən, milliyyətindən, dinindən asılı olmayaraq pensiya ilə təminetmə normalarının vahidliyini özündə birləşdirir, eləcə də sığorta haqlarının məcburiliyini və ümumiliyini nəzərdə tutur. Pensiya sistemi qanunvericiliklə müəyyənləşdirilir. Pensiya haqqında qanun pensiyanın təyin edilməsinin şərtlərini və normalarını təsbit edir. Həmin şərt və normalar pensiya yaşı, əmək stajı, eləcə də normativ materialları özündə birləşdirir. Normativ materiallar faizi, əvvəlki əmək haqlarına görə əmsalları, pensiyanın

minimal və maksimal miqdarını, eləcə də pensiyanın yenidən müəyyənləşdirilməsi mexanizmini və indeksasiyasını əhatə edir. Pensiya islahatının əsasında aşağıdakı əsas məqsədlər durmalıdır:

- AR Konstitusiyasında vətəndaşlar üçün qocalığa, əlilliyə, ailəni saxlayanı itirməyə və qanunvericilikdə nəzərdə tutulan digər hallara görə verilmiş pensiya təminatı ilə bağlı hüquqların reallaşdırılması;
- pensiya sisteminin sabit maliyyə təminatı və dövlət pensiya sığortası və büdcə maliyyələşdirilməsi hesabına pensiya təminatının dayanıqlı inkişafı üçün zəmin yaradılması;
- pensiya təminatı sisteminin ölkəmizdə inkişaf edən bazar münasibətlərinə uyğunlaşdırılması;
- pensiya məbləğinin optimizasiyası;

Respublikamizda pensiya təminatı sisteminin daim yenilənən modern tələblərə uyğunlaşdırılmasının zərüri vəziyyət olması həmin istiqamətdə hazırda da çoxalmaqda olan yeni tələblərin hamısına cavab verən islahatlar olmasını şərtləndirir. Ölkəmizdə halhazırda mövcüd olan pensiya təminat modeli beynelxalq təcrubədən əldə olunmuş biliklər nəzərdə tutulmaqla inkişaf etdeirilməsi vacibliyi ilk olaraq ölkəmizdə bazar iqtisadi sistemi üzrə keçidin uğurla sona çatdırılması, həmçinin pensıya təminatının xeyli ali formada reallaşdırılması üçün şəraitin yaradılması ilə bağlıdır. Bu yöndə 30 “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasında əsas götürülən hədəflər bütünlükdə sosial sahə üzrə, eyni zamanda əhalinin pensiya təminat sahəsində əldə olunmuş nailiyyətlər və uğurlara əsaslanmaqla yəni proqramlar və layihələrin hazırlanma və beynəlxalq təcrübədən yararlanılma strategiyanın reallaşdırılması zamanı əlverisli və əhəmiyyətli zəmin yaradır. Bundan başqa, pensiyatəminatı sistemi üzrə qəbuledilmiş Konsepsiyaların biri isə 2014-2020-ci illər əhatə edən respublikanın pensiya təminat islahatarı Konsepsiyasıdı ki, bu isə öz-özlüyündə pensiyatəminatı sahəsi üzrə dövlət siyasəti əsaslarını müəyən etmiş, fəaliyyətini təmin etməkdədir (https://unec.edu.az/application/uploads/2018/11/K-rimli-Afaq.pdf).

**Cədvəl 3: İşləyən və işləməyən pensiyaçılara təyin edilmiş aylıq pensiyanın orta məbləği**

| | 2018 | | | 2019 | | | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən: | | Cəmi | o cümlədən: | | Cəmi | o cümlədən: | |
| | | işləyən | işləməyən | | işləyən | işləməyən | | işləyən | işləməyən |
| **Təyin olunmuş aylıq** | **208,4** | **240,5** | **204,4** | **221,4** | **260,2** | **216,3** | **263,6** | **278,6** | **261,4** |
| yaşa görə | 233,7 | 265,8 | 228,2 | 249,3 | 288,3 | 242,3 | 291,5 | 299,6 | 290,0 |
| əlilliyə görə | 175,0 | 151,9 | 177,1 | 185,0 | 171,1 | 186,4 | 229,7 | 220,7 | 230,9 |
| ailə başçısını itirməyə görə | 164,1 | 331,8 | 163,3 | 175,4 | 335,8 | 174,5 | 210,2 | 313,9 | 209,2 |
| xidmət illərinə görə | ... | ... | ... | ... | ... | ... | ... | ... | ... |
| sosial pensiyalar | ... | ... | ... | ... | ... | ... | ... | ... | ... |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/)

*"Son bir il ərzində Dövlət Sosial Müdafiəsi Fondu yaş üzrə pensiya təyin edildikdən sonra az 6 il çalışmış 6297 pensiyaçının pensiyasın təkrar hesablayaraq artırmışdır. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin İctimaiyyətlə əlaqə və kommunikasiya şöbəsindən bildirmişlər ki, "Əmək pensiyaları barədə" Qanuna görə, vətəndaş yaşa əsasən pensiya təyin edildiyi gündən başlayaraq işləməkdə davam etsə, hər 6 ildən bir həmin şəxsin hesabında yığılmış sosial sığorta haqqı 72-ə (6 il×12 ay) bölünməklə onun pensiyasının üstünə əlavə edilir. Bu isə çalışan pensiyaçıların mənafelərinin xeyli dolğun təmin edilməsinə imkan verir. Eyni zamanda yaşa görə pensiyaya çıxandan sonra çalışmaqda davam edən şəxslərin arasında sosial sığorta sistemi üzrə aktiv iştiraka maraq artmasını stimullaşdırmaqdadır"* (https://vergiler.az/news/social/11954.html).

**Cədvəl 4: Pensiyaçıların sayı (Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin məlumatlarına görə, ilin əvvəlinə, nəfər)**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Pensiyaçıların sayı - cəmi** | **1299945** | **1315228** | **1318433** | **1295491** | **1270558** |
| yaşa görə | 781237 | 781957 | 778057 | 756136 | 742034 |
| əlilliyə görə | 374466 | 383580 | 389691 | 390113 | 383983 |
| ailə başçısını itirməyə görə | 144242 | 149682 | 150586 | 149233 | 144432 |
| sosial pensiyalar və iş stajına görə | x | x | x | x | X |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/)

Yuxarıda qeyd olunan cədvəldə isə son 5 ildə pensiyaçıların sayının dinamikasına nəzər yetirə bilərsiniz. Cədvələ Oktyabr 2020-ci il tarixində olan

vəziyyətinə əsasən ƏƏSMN-nin DSMF-da 1244,4 min nəfər şəxs pensiyaçı qeydiyyatdadır. Yaşa görə əmək pensiyasının buna hüququ olan insanın müraciətinə əsasən ömürlük təyin olunur. Bu pensiyanın sığorta hissəsi məbləği sığorta olunan fərdi hesablarının sığorta hissəsindəki yaşa əsasən əmək pensiyasının təyin edildiyi tarixə qeydə alınan ("Əmək pensiyaları barədə" Qanunun 27-ci maddəsi üzrə müvafiq olaraq sığortaolunan şəxsin fərdi hesabının sığorta hissəsi üzrə qeydə alınmış pensiya kapitalı ilə birlikdə) pensiya sığorta kapitalın (PSK) gözlənilən pensiya ödənişləri müddəti aylar sayına nisbəti olaraq (SH=PSK/T) müəyyən olunur. Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyevin 21-i dekabr 2018-ci ildə təsdiq etmiş olduğu "Əmək pensiyaları barədə" Azərbaycan Respublikası Qanununda dəyişiklik olunması barədə" Qanun 2019-cu il 1 yanvardan qüvvəyə minibdir. Qanuna edilən və qüvvəyə minən dəyişikliklərə görə, 2019-cu il əvvəlindən pensiyalar pensiya hüququ yaranmış şəxsin heç bir müraciətləri olmadan, sənəd təqdim etməyərək və pensiya hüququ yaranan günün ərzində elektron formada təyin olunmasına başlanılmışdır. Pensiya şəxsə təyin ediləndən sonra ona bu, eyni zamanda pensiya məbləği, bank kartın əldə etmiş olacağı bank filialı və zaman barədə "sms", e-mail yaxud da rəsmi məktubla məlumat verilməkdədir (https://www.sosial.gov.az/yashagoreemekpensiyasi).

Pensiya təyinatının avtomatlaşdırılma tədbiri pensiya hüquqları yaranacaq insanlardan 70 faizin əhatə edəcək. Pensiya təyinatı avtomatlaşdırılması indi də, mümkün olmayan başqa 30 faiz şəxslər sırasına aiddir:

- "Əmək pensiyaları barədə" Qanunun 9-cu maddəsində (güzəştli şərtlər ilə əmək pensiyası üçün hüquq qazananlar)
- "Əmək pensiyaları barədə" Qanunun 20-ci maddəsində olan qruplar (dövlət qulluqçusu, hərbi qulluqçu, xüsusi rütbəli şəxs, millət vəkili və s.) (https://www.sosial.gov.az/yashagoreemekpensiyasi).

Mütəmadi şəkildə bu kateqoriyadan olan şəxslərin pensiya təyinatının avtomatlaşdırılması məqsədilə qanunvericilik və aidiyyəti qurumlar ilə birgə elektron proqram təminatı qurulması yönündə işlər aparılacaq. Əmək pensiyası yaşı həddinə çatan, ancaq yaşa görə əmək pensiya hüququ yaranmamış şəxslərə "Sosial

müavinətlər barədə" Azərbaycan Respublikasının Qanuna görə əmək qabiliyyəti olmayan insanlar çalışmadıqda yaş üzrə sosial müavinət (130 manat) alma hüququ vardır (https://www.sosial.gov.az/yashagoreemekpensiyasi).

2021-ci il yanvar-aprel ayları da pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardım üzrə ödənişlərdə artma dinamikası davam etmişdir. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondunun tərəfindən bu dövrdə qeyd edilən istiqamətr üzrə əhaliyə keçən ilin eyni dövrünə nəzərən 6,0% yaxud da 113,9 mln. manat çox olaraq 2 mlrd. 25 mln. manat vəsait ödənilmişdir. Həmin sosial ödənişlər ümumi olaraq 2 mln. 350 min insanı əhatə edib (https://modern.az/az/news/290155/dord-ayda-ehaliye2milyard25-milyon-manat-vesait-odenilib).

Dövlət Sosial Müdafiə Fondunun özü ötən illər təyin edilmiş pensiya məbləğlərinin qanunvericilik tələblərinə uyğun olmasının araşdırılmasını davam etdirməkdədir. Araşdırmalar nəticəsinsayəsindədə **12809** insanın pensiya məbləğinin qanunvericilik üzrə nəzərdə tutulandan aşağı miqdarda hesablandığı müəyyən olunub. Nəticədə, sosial ədalətin təmin olunması üçün bu şəxslərin pensiya məbləği qanunauyğun formada yenidən hesablanmaqla artırılıb. Artımlar onlara pensiya hüquqları yarandığı tarixdən yaxud da qanunvericilik tələbinə uyğun durumlarda əvvəlki üç il üzrə hesablanmaqla verilib. Bu artımların təmin olunması üçün əlavə olmaqla illik 8 mln. manat vəsait ayrılmışdır. Bundan əlavə, keçmiş dövrdə ödənilməli olan 14,5 mln. manat fərq hesablanmaqla aylıq pensiya məbləğləri üzərinə əlavə olunmaqla hissə-hissə ödənilir. Nəticədə, bu şəxslərə pensiyanın ödəniş müddətində əlavə şəkildə 80 mln. manatdan artıq vəsait ödənəcəkdir (https://anews.az/az/bu-pensiyacilara-elave-pul-verilecek-resmi/).

# III FƏSİL. SOSİAL MÜAVİNƏTLƏR VƏ TƏQAÜD PROQRAMI SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## 3.1. Sosial müavinətlərin unifikasiyası

İqtisadi qloballaşmanın dərinləşdiyi və inteqrasiyanın gücləndiyi müasir dövrdə insanların layiqli həyat şəraiti ilə təmin edilməsi, onların rifah halının yüksəldilməsi, dayanıqlı sosial təminat sisteminin formalaşdırılması, müxtəlif sosial risklərdən qorunmaları və inkişafı sosial siyasətin əsasını təşkil edir. Lakin, iqtisadi sistemdə baş verən kataklizmlər və müxtəlif tipli böhranlar sosial təminat sisteminin bu kimi dəyişikliklərə reaksiyasını dəyişdirə bilir. Bu məqsədlə bazar iqtisadiyyatı yönümdə sosial təminat sistemi formalaşdırılması yaranacaq bu tipli risklərə qarşı dayanıqlıq şərtləndirən başlıca səbəb kimi qiymətləndirilir.

Bir sıra Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamə və konvensiyalara nəzər salsaq, Minilliyin İnkişaf Məqsədləri barədə BMT-nin Bəyənnaməsində qeyd edildiyi kimi dayanıqlı sosial təminat sisteminin möhkəmləndirilməsi və yaradılması üçün məşğulluğun stimullaşdırılması, işsizliyin azaldılması, insanların gələcəkdə dövrdə yarana biləcək müxtəlif tipli sosial risklərdən qorunmaları və minimum yaşayış standartları ilə təmin olunması sosial-iqtisadi siyasətin vacib elementləri olmalıdır. Bu səbəbdən bu günki inkişaf dövründə sosial təminat sistemi ölkəmizin milli iqtisadiyyatının tərkib hissəsi olaraq dayanıqlı inkişafın təmin olunmasında nəzərə alınmalı və sistemin rolu qeyd olunmalıdır.

Sosial müavinatların ödənilməsi, təyinatı və bu tipli halların nizamlanması müavinatların hüquqa aid məsələlərini özündə ehtiva edir. Lakin, qeyd etmək lazımdır ki, müavinətlərə hüququ olan benefisiarlara sosial müavinətlərin təyin olunaraq ödənilməsi onların həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına birbaşa təsiri olmur. Burada təyin edilən müavinətlərin ölkənin sosial-iqtisadi göstəricilərinə uyğunluğu demək olar bütün tədqiqatçıların mütəmadi araşdırma mövzusu olmuşdur. Başqa sözlə desək, təyin edilən müavinatlərin min. yaşayış standartları ilə vəhdəti sözügedən ödənişlərin səmərəliliyinin mühüm göstəricisi

hesab edilir. Ümumiyyətlə, sosial müavinatlər təyin edilərkən beynəlxalq təcrübədə müxtəlif göstəricilərə diqqət edilir. Buraya minimum əməkhaqqıları və yaxud ölkə üzrə ehtiyac meyarı, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş normalar və ölkə üzrə yaşayış minimumu daxildir. Qeyd olunanlara misal olaraq 2012-ci il 14 iyun tarixində BƏT-nın "minimum sosial standartlar haqqında" 202 n-li tövsiyəsini göstərmək mümkündür. Təşkiləta üzvlüyü olan ölkələr tövsiyədə bəhs olunan öhdəliklərin icrası məqsədi ilə müxtəlif işlər görürlər. Tövsiyyənin ikinci bölməsinin beşinci maddəsində aşağıda əks etdirilən normalar vacib minimum sosial müdafiənin standartları kimi qiymətləndirilir:

- Sosial sığorta sisteminə çıxışı olmayan, əmək qabiliyyəti olmayan və yaşlı əhali kütləsinin sosial cəhətdən müdafiəsini gücləndirmək üçün respublika üzrə yaşayış minimumuna uyğun şəkildə müavinatların tətbiqi;
- Milli səviyyədə müəyyənləşdirilmiş yaşayış min.-a uyğun aktiv yaş aralığında olan şəxslərin əlillik, hamiləlik, işsizlik və müxtəlif xəstəlik hallarında gəlirlərinin təhlükəsizliyinin təmini məqsədi ilə müavinət sisteminin mövcudluğu;
- Təhsil, keyfiyyətli səhiyyə və ümumi olaraq sosial müdafiə sisteminə inteqrasiya, o cümlədən ölkə səviyyəsində müəyyənləşdirilmiş xidmət və məhsullara çıxışın təmin olunması;
- Milli səviyyədə müəyyənlədirilmiş yaşayış min.-a uyğun uşaqların qidalanması və onların minimal gəlir təhlükəsizliyini təmin edən, səhiyyə xidmətlərindən istifadə, qidalanmasl və başqa həyati mühüm standartların təmini üçün müavinat sisteminin mövcudluğu.

Tövsiyyənin müvafiq maddəsinə nəzər yetirdikdə, müxtəlif təbəqələrdən olan əhali qruplarının iqtisadi təhlükəsizliyinin təmin olunması və sosial müdafiəsinin gücləndirilməsi onlara görə tətbiq olunan sosial müavinatlərin ölkə üzrə minimum yaşayış standartlarına uyğunladırılması və müavinətlərin bütün əhali qrupunu başqa sözlə desək uşaqlar, aktiv əmək qabiliyyətli şəxslər və ahılları əhatə etməsi tövsiyə edilir. Tövsiyənin bəndlərini təhlil edərkən həqiqətən də müxtəlif təbəqədən olan əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi, ədalətli sosial təminat sisteminin formalaşdırılması və onların iqtisadi təhlükəsizliyin təmin olunması və

bu məqsəd ilə təyin edilən sosial müavinatların məbləğlərinin minimal yaşayış normalarına uyğunlaşdırılması prinsiplərinin müasir təminat sisteminin daha da təkmillədirilməsi baxımından həyata keçirilən sosial siyasətin vacib xətti olduğunu demək mümkündür.

Sosial iqtisadi göstəricilərin son on ildə əhəmiyyətli dərəcədə artması, həyat səviyyəsinin yüksəldilməsi, və ona baxmayaraq sosial müavinat məbləğlərinin əhəmiyyətli dərəcədə artırılması sistemin təkmilləşdirilməsi zərurətini meydana çıxartmışdır. Qeyd edilənləri nəzərə alaraq, sosial müavinət sisteminin sadələşdirilməsi və unifikasiyası, müavinətlərin məbləğinin daha da artırılması, bəzi müavinətlərin ləğv olunması qarşıda duran mühüm əhəmiyyətli məsələ olmalıdır. İnsanların layiqli həyat şəraitinin təmin olunması və sosial təminat dövlətin sosial və iqtisadi siyasətinin aparıcı istiqamətlərini təşkil edir.

Respublikamızda ötən il, yəni 2020-ci ildə baş verən 44 günlük müharibədən sonra bəzi müavinətlərdə- əmək pensiyaları, şəhidlik statusları və əlilliklə bağlı qanunlarda dəyişiklik baş verdi. Bunlar aşağıdakılarda öz əksini tapmışdır:

Şəhidlik statusu- əsas imtiyaz və tələblər

Şəhid hesab olunanlar:

1. Mülki vətəndaşlar – ermənilərin törətdiyi hərbi təxribatın nəticəsi olaraq itkin düşmüş və həlak olmuş vətəndaşlar;
2. Hərbi qulluqçular – ölkəmizin ərazi bütövlüyü naminə aparılan hərbi əməliyyatlar, həmçinin döyüş təminatı və döyüş tapşırığıyla əlaqədar tapşırıqların icra edilməsi üçün xidməti vəzifəsini icra edərkən itkin düşmüş və həlak olmuş hərbi qulluqçular.

Şəhid hesab olunması üçün tələb edilən sənədlər:

- Mülkü vətəndaşlar üçün: şəhər(rayon) yerli icra hakimiyyəti orqanının verdiyi arayış;
- Hərbi qulluqçular üçün: İtkin düşmə hallarında məhkəmə qətnaməsi, ölüm haqqında şəhadətnamə və hərbi hissə arayışı.

Hərbi qulluqçuların müraciət etməli olduqları dövlət qurumu:

- ❖ Əsgərlərə münasibətdə - Səfərbərlik Xidmətinin yerli bölmələri (SHXÇDX);

❖ Zabit və gizir heyəti üçün – XDMX, DSX, XKX, DTX, DİN, MN (xidmət etdiyi orqandan asılı olaraq dəyişir)

Mülki vətəndaşların müraciət etməli olduqları qurum: şəhər(rayon) YİHO.

Sənədlər əsasında şəxsə, şəhidin ailə üvzlərinə şəhid ailə üzvü statusunun verilməsi haqqında bir aydan gec olmadan arayış təqdim edilir və o arayışın əsasında Sosil Müdafiə Nazirliyinin yerli bölmələri tərəfindən onlara şəhid ailəsi vəsiqəsi təqdim edilir.

Sosial təminat hüququnun formalaşması:

➢ Şəhid ailəsi statusu haqqında arayış təqdim edildiyi tarixdən AR Prezidentinin təqaüdü təyin olunur;

➢ Şəhid həlak olduğu gündən etibarən şəhidlərin ailə üzvlərinin müavinət və pensiya alma hüququ formalaşır.

Əsas hesab edilən imtiyazlar:

3 000 azn dəfn üçün ödənilən maliyyə yardımı və 11 000 azn sığorta ödənişi istisna olmaqla, ümumilikdə şəhid ailələrinin hüquqları bərabərdir.

➢ Pensiyaya əlavə (aylıq) – şəhidlərin ailə üzvlərinə əmək pensiyasına əlavə olaraq 93,5 manat;

➢ Şəhidin pensiya almaq hüququ olannda ailə üzvlərinə ailə başçısını itirdiyi üçün aylıq pensiya;

➢ Şəhidin ailəsinə 300 azn-ə AR Prezidentinin təqaüdü;

➢ Kurort-sanatoriya müalicəsi- Ölkə hüdudları daxilində şəhid ailə üzvləri tibbi müəssisələrin göndərişi əsasında pulsuz şəkildə kurort-sanatoriya müalicəsiylə təmin olunurlar;

➢ Dəfn mərasiminin keçirilməsi və təşkili üçün maliyyə dəstəyi – Yas mərasimini həyata keçirmək üçün həlak edən şəhidin valideynlərinə 3000 azn maliyyə yardımı ödənir;

➢ Mənzil təminatı – 2014-cü il 1 yanvar tarixinədək YİHO-larda yaşayış yerinə ehtiyacı olaraq uçota alınan şəhidlərin ailə üzvlərinin fərdi ev və yaxud mənzil ilə təmini məsələlərini ƏƏSMN icra edirdi. Qeyd olunan tarixdən sonra yaşayış yerinə

ehtiyacı olan şəhidlərin ailə üzvlərinin mənzil ilə təmin olunması qanunvericiliyə əsasən YİHO tərəfindən icra edilir;

➢ Bir dəfəlik sığrota ödənişi – 11 000 azn sığorta ödənişi həlak olan hərbi qulluqçuların ailələrinə ödənir;

➢ Təhsil – şəhid olmu şəxslərin övladları təhsil haqqını ödəməkdən azaddırlar.

Müharibəylə əlaqədar əlillik statusu – Müharibəylə əlaqədar əlilikilə bağlı təyinatı aparılanlar:

1. Hərbi xidmət zamanı xidməti vəzifəsini yerinə yetirmək ilə əlaqədar (HXVYY);

2. Ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun müdafiəsiylə əlaqədar (ARƏBM).

## 3.2. Təqaüdlər və onların təkmilləşdirilməsi

Respublikamız bütün vətəndaşlarının sosial məsələlərinin həll edilməsinə xüsusi diqqət və qayğı ilə yanaşır, bu baxımdan mühüm lahiyələr icra edilir. Belə ki, ötən ilin dekabr ayında "Əmək pensiyaları haqqında" AR Qanununun on doqquzuncu maddəsinin ləğvi və bu məsələdən irəli gələn dəyişikliklər zərurəti yaranmasıyla əlaqədar qanuna birsıra əlavələr təklif olunmuşdur və sonra qeyd olunan təkliflər qəbul olunmuşdur.

Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" qanunun on doqquzuncu maddəsinin ləğv olunması – həmin maddədə qeyd olunan əmək pensiyasının tərkibində olan sığorta hissəsinə əlavə pensiyanın təminat sistemində sosial sığorta prinsiplərini nisbətən zəiflədir və qeyd olunan əlavələrin maliyyələşdirilməsi həddindən artıq mürəkkəb prosesdir. Məhz bu məqsədlə, qeyd olunmuş maddədə öz əksini tapmış pensiya əlavələri ləğv olunaraq hazırda mövcud olan AR Prezidentinin təqaüdləriylə birləşdirilməsi və ikisinin də əvəzinə müvafiq yeni AR Prezidentinin təqaüdünün təsis olunması təklif edilmişdir. Pensiyaya əlavələrin ləğv olunaraq, AR Prezidentinin məbləğinin artırılması Prezident təqaüdü və pensiya alan şəxslərin sosial rifah halının daha da yaxşılaşdırılmasına müsbət

təsir edəcək, həmçinin bu tip sosial müavinətlərin elektron formada icrasını sürətləndirəcək.

Sosial müavinətlərin unifikasiyası prosesinə 2019-cu ildən başlanılmışdır. Bu prosesin məbləğlərinin optimizasiya edilməsi və icrasının davamı olaraq Çernobıl, 20 yanvar və müharibə əlillərinin övladlarına, şəhid ailəsinin üzvlərinə və şəhid övladlarına ödənilən müavinətlər ləğv olunaraq, qeyd olunan kateqoriyaya uyğun AR Prezidentinin təqaüdünün məbləğinin qaldırılması təklif edilmişdir.

Milli Qəhrəman adı təqdim edilmiş şəxslərə AR Prezidentinin təqaüdünün artırılması – AR Prezidentinin Fərmanına edilən dəyişikliklərə görə təqaüdün məbləği 1500 manatdan 1800 manata qədər artırıldı.

20 yanvar şəhidləri və Əfqanıstanda həlak olanlar da daxil olmaqla şəhid ailələri üçün Prezident təqaüdünün məbləği 200 manat artırılaraq 500 manat oldu. Qeyd olunan şəxslər təqaüd ilə yanaşı aylıq olaraq pensiya və yaxud müavinət də alırlar. Bundan əlavə 20 yanvar və yaxud müharibə hadisələriylə əlaqədar əlilliyi mövcud olan şəxslərə Prezident təqaüdünün məbləğində artımlar olunması, silahlı hücuma məruz qalan əlil şəxslərin sağlamlığına göstərilən diqqəti özündə ehtiva edir.

Müharibəylə əlaqədar AR Prezidentinin təqaüdünün məbləğində qruplar(I, II, III, IV qrup) üzrə də artımlar baş vermişdir.

Ümumi olan səbəblərdən 1-ci dərəcə gözdən əlilliyi mövcud olan şəxslərə ödənilən 100 azn Prezident təqaüdünün və 110 azn məbləğində pensiya əlavəsinin ləğv olunaraq, onlara 210 azn məbləğində yeni növ AR Prezidentinin təqaüdü təsis edildi.

“Əmək pensiyaları haqqında” qanunun iyirminci maddəsinə əsasən fəlsəfə və elmlər doktorları adı təqdim edilmiş şəxslərə müvafiq olaraq 120 və 200 azn AR Prezidentinin təqaüdü təsis edilmişdir.

Respublikamız Milli Qəhrəmanların ailə üzvlərinə 110 azn, şəhid olmuş şəxslərin ailə üzvlərinə 93,5 azn, öhdəliyində əmək qabiliyyətsiz ailə üzvləri olam həmçinin işləməyən 1-ci və 2-ci əlillərə və yaxud sağlamlıq imkanları məhdud olan 18 yaşına qədər olan şəxslərə, bundan əlavə öhdəliyində ailə başçısını itirməyə görə

pensiyayla təmin olunmalı şəxslərə aid olunan əmək qabiliyyəti olmayan ailə üzvləri mövcud olan işsiz hərbi qulluqçulardan olan əmək pensiyaçılarına ailənin əmək qabiliyyətsiz hər bir üzvünə, Böyük Vətən müharibəsində iştirak edənlər, siyasi represiyaya məruz qalan və sonradan bəraər qazanan şəxslərə və Böyük Vətən müharibə ilə əlaqədar əlillik qazanan şəxslərə pensiya əlavəsinin ödənməsi davam etdirilir.

Post-müharibə dövründə şəhidlərin ailə üzvlərinə ödənilən sosial ödənişlərin təyinatı prosesinin icrasında e-sistemlər vacib əhəmiyyət kəsb edib.

Spesifik milli inkişaf modeli və davamlı inkişafı ilə dünyada tanınan ölkəmiz inkişafı uğurla təmin olunub. İcra edilən siyasi-iqtisadi idarəçilik modelinin nəticəsi olaraq, Azərbaycanda bütün sferalarda yeniliklər və uğurlar əldə olunub. Respublikamız iqtisadi modeli dünya ölkələri arasında nümunəyə çevrilib. Ölkəmizdə icrası təmin edilən böyük layihələr və islahatlar bir daha təstiqləyir ki, Azərbaycanın gələcəyi, əhalisinin həyat səviyyəsinin yaşxılaşdırılması sahəsində həyata keçirilən layihələr vətəndaşların xoşbəxt gələcəyini təmin etmək üçündür.
Müasir dövrdə cənab Prezidentimiz İ.Əliyevin sosial islahat proqramının aparıcı missiyası dövlətin sosial xidmətlər sahəsində innovativ yanaşmalara əsaslanan çevik, optimal və modern mexanizmlərin üstündə qurulması, xidmətlərdə bərabərlik, əlçatanlıq, ünvanlılıq, şəffaflıq və ədalər prinsiplərinin təmin olunmasıdır. Dövlət başçımızın "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində ida2rəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanıyla ƏƏSMN-nin tabeliyində yaradılan “Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin” əsas məqsədi hər bir vətəndaşın yanında olaraq, sosial müdafiə, əlillik, əmək və məşğulluq sferalarında mövcud xidmətlərin keyfiyyətinin artırılması və bu sahədə şəffaflığın yüksəldilməsi, vətəndaş məmnunluğunun və innivativ həllərin tətbiqinin təmin olunmasıdır. Ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və cənab Prezidentin Fərmanıyla ƏƏSMN-nin nəzdində yaradılan DOST agentliyinin sayca 4-cü Mərkəzi istifadəyə verilib. 4 saylı DOST Mərkəzinin açılış mərasimində cənab Prezident İ.Əliyev iştirak edib.

DOST Mərkəzləri Birinci vitse-prezident M.Əliyevanın dövlətin sosial xidmətlərinin "bir pəncərə"dən, vahid platformadan, operativ, tam şəffaf, nəzakətlilik prinsipi, vətəndaş rahatlığı və sadə prosedurların əsasında təqdim edilməsi təşəbbüsünün nəticəsidir. Yeni yaradılan DOST mərkəzləri Tibbi Sosial Ekspertiza, notariat, bank, övladlığa götürmə, məşğulluq və əmək, sosial müavinət, sosial sığorta və pensiya sahələrini əhatə edən 132 xidmət təklif edir. Mərkəzdə hər gün 800 vətəndaşın qəbulunun həyata keçirilməsi nəzərdə tutulub. “DOST” Agentliyinin nəzdindəki çağrı mərkəzi Azərbaycan üzrə gündəlik olaraq 5000-ə qədər zəng qəbulu üçün şərait yaradır. "İnklüziv İncəsənət Məktəbi"-"ART School" ota hesabla ildə 150 və yaxud 200 əlil vətəndaşın təlimlərdə iştirak etməsinə şərait yaradacaq. Bu günə qədər DOST Agentliyinin xidmətlərindən istifadə etmiş 340 mindən artıq şəxs 97,3% məmnun qalmışdır.

Son 3 ildə pensiyaların orta aylıq həcmi 60% artmışdır. Ölkəmizdə pensiyanın orta aylıq həcmi il əvvəlinə nəzərən daha 10%-ə qədər artmaqla 330 manata çatmışdır. Ümumilikdə 2018-ci il əvvəlinə nəzərən pensiyaların orta aylıq həcmi 60% artmışdır

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılan tədqiqat işinin sonunda belə bir nəticəyə gəlmək olar ki, sosial sahədə müstəqiliyin ilk illərindən etibarən mütəmadi təkmilləşdirmə işləri aparılmış və vətəndaşların müxtəlif tipli sosial şoklar yaşamaması üçün mühüm tədbirlər həyata keçirilmişdir. Qeyd olunanların nəticəsi olaraq insanların layiqli həyat şəraitilə təmin olunması və min. yaşayış standartları ilə təmini, işsizlikdən sığorta olunmaları, həmçinin dünyada baş verən iqtisadi böhranların sosial cəhətdən daha həssas olan şəxslərə mənfi təsirinin məhdudlaşdırılması ST sisteminin səmərəli və daha təkmil təşkilini zəruri edir.

Araşdırmalar zamanı sosial müavinət və təqaüd sisteminin istər kompleks şəkildə, istərsə də bu sferanın inkişafına təsiri olan altqrup sahələri üzrə əldə edilmiş nəticələrə aşağıdakı aid etmək mümkündür:

- ✓ Sosial müavinət və təqaüd sisteminin təkmilləşdirilməsi haqqında müxtəlif elmi-nəzəri fikirlərə müəllif mövqeyini ifadə etməklə, problemə müasir yanaşmalar müəyyən olunmuşdur;
- ✓ Mövcud iqtisadi şəraitdə 1 Yanvar 2021-ci il tarixinə olan statistik göstəricilərə nəzər yetirdikdə görərik ki, 77.300 az təminatlı ailələrin 323, 0 min üzvü sosial yardım almışdır. Həmçinin, qeyd etmək lazımdır ki, onun bir nəfər üçün olan orta aylıq məbləği 57,20 azn təşkil edir;
- ✓ Sosial müavinət sisteminin hazırki vəziyyətinə nəzər yetirdikdə görə bilərik ki, diqqət olunmalı əsas nüanslardan biri ödənilən müavinatların ölkə üzrə yaşayış min-a nisbətinin uyğunluq təşkil etməməsidir. Verilən müavinətlərin bəziləri nəinki Azərbaycan üzrə yaşayış min-dan hətta insanların ehtiyac duyduğu zəruri məbləğdən aşağı olduğunu müşahidə etmək mümkündür;
- ✓ Pensiyaların sonuncu artımı ümumi olaraq pensiyaçıların 93%-ni və ya onların 1 milyon 140 min nəfərini əhatə etmişdir;
- ✓ Ölkəmizin sosial təminat sisteminin inkişafı və təkmilləşdirilməsində beynəlxalq konvensiyaların rolu xüsusi qiymətləndirilir;

- ✓ Ölkəmizdə hazırki dövrdə mövcud olan sosial müdafiə siyasətinin qiymətləndirilməsi zamanı son dövrlərdə göstəricilərin yüksələn xətt üzrə inkişafı və yoxsulluq üçün müəyyən olunan həddin region ölkələrilə müqayisədə minimal həddə olması passiv yardım sisteminin müaisr əmək bazarı proqramları ilə əvəz edilməsi prosesini şərtləndirmişdir;
- ✓ Dövlətimizin müasir inkişaf mərhələsində ünvanlılıq prinsipini əsas götürməklə insanların zəruri yaşayış standartları ilə təmin olunması və sosial müdafiənin gücləndirilməsi istiqamətində təkmilləşdirə işlərinin həyata keçirilməsi zəruridir.

Dövlətin pensiya təminatının həyata keçirilməsi aşağıdakı mənfi nəticələrlə özünü büruzə verir:

- ▪ Zəruri olan vəsaitlər işləyən əhalinin üzərinə düşməklə, ümumi vergilərdən əldə edilir;
- ▪ Bu pensiya təminatı sistemində məcburi bərabərləşdirməyə gətirib çıxarır;
- ▪ Dövlət özünün üzərinə düşən öhdəlikləri də ( ölkənin müdafiə sisteminin möhkəmləndirilməsi, dövlət aparatının saxlanılması, təhsili inkişaf etdirmək və s.) vergilər hesabına həyata keçirdiyinə görə, bu zaman pensiya təminatının səviyyəsi aşağı düşür.

Azərbaycan Respublikamızda sosial müavinət sisteminin dayanıqlığını təmin etmək məqsədi ilə aşağıda qeyd olunan tədbirlərin və islahatların icra edilməsi təklifi irəli sürülür:

- Orta və uzun müddətli dövrdə pensiya alanların gələcək təminatlarının dayanıqlığının artırılması və dövlət büdcəsindən asılılığın bir az daha azaldılması məqsədilə pensiya sisteminin maliyyə dayanıqlığının artırılması baxımından tədbirlərin görülməsi;
- AR Konstitusiyasının 38-ci maddəsi dövlətin xeyriyyəçilik fəaliyyətinə rəvac verməsini, bu istiqamətin inkişafı üçün böyük imkanlar yaratmasını özündə ehtiva edir. Bu baxımdan ehtiyac içində olan əhalinin sosial müdafiəsinin təmini istiqamətində fəaliyyət göstərən özəl təşkilatlara vergi güzəştlərinin tətbiq olunması təklif edilir;

- Sosial sığorta sisteminə çıxışı olmayan, əmək qabiliyyəti olmayan və yaşlı əhali kütləsinin sosial cəhətdən müdafiəsini gücləndirmək üçün respublika üzrə yaşayış minimumuna uyğun şəkildə müavinatların tətbiq edilməsi təklif olunur;
- Yaşayış minimumu və ya minimum istehlak səbəti müəyyənləşdirilərkən insanların əlillik dərəcələri nəzərə alınaraq, qeyd olunan şəxslər üçün xüsusi istehlak səbətlərinin müəyyən edilməsi təklif olunur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Yoxsulluğun azaldilması və həmçının iqtisadi inkışaf üzrə Dövlət Proqramı (2003-2005);

2. Yaşayış minimumu barəsində AR-nın Qanunu. Bakı, 5 oktyabr, 2004;

3. Sosial müavinətlər haqqında, AR-nın Qanunu, 2007

4. AR-nın Konstitusiyası, Azərbaycan Respublikasının Qanunlar Külliyatı toplusu, Bakı, Qanun, 2001.

5. Sosial inkişaf, sosial müdafiənin tənzimləmə siyasəti, Azərbaycan Milli Elmlər Akademiyasının məruzələri toplusu, İqtisadiyyat. №6, 2012. s.131-149;

6. Əhalinin sosial müdafiəsini üzrə təkmilləşdirilməsi problemləri barəsində, Magistr Dissertasiyası işi, Fikriyyə M.T. Bakı 04.12.2015

7. "Sosial inkişafın planlaşma strategiyası". Azərbaycan Milli Elmlər Akademiyasının məruzələri. İqtisadiyyat. №5. 2012. s.135-141;

8. Sosial təhlükəsizlik şəbəkələri və həmçinin onların maliyələşmə mənbələri üzrə İqtisad Elmləri: Nəzəriyyə və Praktika, Elmi Jurnal. 2011;

9. Sosial inkişafın, sosial müdafiənin tənzimlənməsi. Az.ETKTİ və həmçinin Tİ, Elmi əsərlər. № 03.2013. s.126-138;

10. İqtisadi tətqiqatlarda bəzi ekonametrik üsullar: Regresiya təhlili və panel üsulu. Azərbaycanın Vergi xəbərləri jurnalı 2012-ci il, IV buraxılış;

11. Aktiv Sosial Yardım Siyasəti, Özünəməşğulluqla olan əmək bazarına inteqrasiyadır. Beynəlxalq Hüquq və həmçinin İnteqrasiya Problemləri Jürnalı. 2013-ci il;

12. Azərbaycanda sosial təminat sistemi üzrə təkmilləşdirilməsində beynəlxalq konvensiyaların rolu araşdırılması. ADİU, Elmi Xəbərləri Jürnalı, 2013.

13. Çox uşaqlı ailələrə verilən müavinətin sistemləri. BDU "Elmi konfransın materialları əsasında, 2014;

14. Quliyeva N.Q. HUseynov R.M. (2013), Azərbaycanda yoxsulluq səviyyəsinin azaldılmasında ünvanlı sosial yardım mexanizminin effektivliyi barəsində, 412 s.

15. Azərbaycan Respublikasın əsas regional sosial-iqtisadi inkişafı üzrə olan Dövlət Proqramı (2004-2008-ci illər), Respublika, qəzeti, 13.03.2013

16. Əmək və həmçinin Sosial Problemlər üzrə ETTM elmi əsərləribn toplusu, ıv. buraxıliş, Bakı, 2008.

17. Əliyev M.N. (2005), Pensiya hüququnun əsas problemləri. Bakı, BDU nəşriyyatı, 421 s.

18. Həsənov R.S. (1999), Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modellərinin konseptual əsaları. Bakı, 341 s.

19. Azərbaycanın Respublikasnda 2012-ci il üzrə ehtiyac meyarının həddi baarəsində Azərbaycan Respublikası üzrə Qanun. Bakı şəhəri, 22.11.2011

### İngilis dilində

1. Academy on Employment Issues Conference materials/ ITC-ILO Turin, Italy 2014.

2. Academy on Social Security / Conference materials. ILO (International Labor Organization) Turin, Italy. 2012

3. A council of europe treaty safeguarding human rights / The Revised European Social Charter. 1999

### Rus dilində

1. Жеребин В.М., Романов А.Н. (2002), Уровщнь жизни насления. М.: Юнити-Дана, 592 стр.

2. Хижный Э. (2006), Государстенная система социальной защиты грждан в страах западной Европы. М: Унион Ран, 243 стр.

3. Хижный Э. (2006), Государтвенная система социальной защиы граждан в странх западной Европы. М.: УНИОН РАН, 272 стр.

## İnternet resursları


1. https://metbuat.az/news/1407096/6-minden-cox-sehid-ve-qazi-ailesine-mesgulluq-desteyi-goster.html.
2. https://www.sosial.gov.az/
3. https://www.stat.gov.az/
4. https://president.az/
5. www.wikipedia.org;
6. https://banco.az/az/news/daha-bir-elektron-xidmet-istifadeye-verilib
7. www.e-qanun.az;
8. https://apa.az/az/xeber/sosial_xeberler/bu-il-171-min-sexse-e-qaydada-pensiya-muavinet-ve-teqaud-teyin-edilib-642617
9. www.google.az;
10. www.azstat.org.

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** İşləməyən əhaliyə dövlət tərəfindən verilən sosial müavinətlər..................................31

**Cədvəl 2**: İşləyən əhaliyə dövlət tərəfindən verilən ayrı-ayrı müavinətlər..................................40

**Cədvəl 3**: İşləyən və işləməyən pensiyaçılara təyin olunmuş aylıq pensiyaların orta məbləği ....48

**Cədvəl 4**: Pensiyaçıların sayı ........................................................................................ 49

**Cədvəl 5:** Kişilərin və qadınların müvafiq illər üzrə pensiya yaş həddi......................................65